# UNİKAL

№19 (2201) 7 iyun 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# İlham Əliyevdən mühüm mesaj:

## "Bizim ailəmiz Türk dünyasıdır, başqa ailəmiz yoxdur"



Səh.3

## Sahil Babayevin kreslo talaşı

*Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Mustafa Abbasbəyli vəzifəsindən azad edildi. Bildirildi ki, o, bundan sonra fəaliyyətini Mədəniyyət Nazirliyində davam etdirəcək. Belə ki, M.Abbasbəyli Mədəniyyət Nazirliyi Aparatının rəhbəri təyin olunub. Qeyd edək ki, M. Abbasbəyli 2 iyul 2020-ci ildən etibarən Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri idi.Onun rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı zaman-zaman müxtəlif tənqidlər səsləndirilsə də, İdarə Heyəti sədrinin görəvindən uzaqlaşdırılması ictimai rəydə gözlənilməz qarşılandı. Məsələ burasındadır ki, adıçəkilən agentliyin ünvanına media və ekspertlər tərəfindən müəyyən iradların səsləndirilməsinə baxmayaraq...*

Səh.9

## "Bağ evlərində də kəskin qiymət artımı müşahidə edirik"




*Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a müsahibə verib. O, yay mövsümündə kirayə mənzil qiymətlərinin necə olacağından, bahalı bağ evlərinə tələbatın olub-olmamasından, hazırda mənzil və avtomobil bazarında qiymətlərin necə dəyişdiyindən danışıb.*

Səh.4

## Delimitasiyanın növbəti mərhələsi çətin olacaq



*Ermənistanın Göyçə mahalının qubernatoru Karen Sarkisyanın ölkə parlamentində jurnalistlərin suallarını cavablandırarkən "Ermənistan Azərbaycan qoşunlarının Göyçə mahalından çıxarılması üçün başqa vasitələrə əl atacaq" açıqlaması blefdir. Bunu politoloq Elxan Şahinoğlu məlum açıqlamaya münasibət bildirərkərn deyib.*

Səh.9

## "Türk dövlətləri arasında əməkdaşlıq uğurla inkişaf edir" - Sahibə Qafarova



*"Qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda olduqca uğurla inkişaf edir". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova TÜRKPA-nın "Türk Dünyası üçün Yaşıl Üfüqlər: Yaşıl Gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" mövzusuna...*

Səh.2

18_27 IYUl-QARA.qxd 6/6/2024 6:57 PM Page 2



# "Açıq-saçıq geyinə bilmirəm, mənə abır gəlib" - Pərvin Abıyeva

*"Sosial şəbəkədə təhqir yazanda pis olmuram, onu ondan betər təhqir edirəm. Anamı, atamı, qardaşımı, ailəmi küçədən tapmamışam. Kimsə, durduğum yerdə gəlsin məni söysün, deyim abrıma qısılım? Onun da ailəsi, anası otursun işində-gücündə olsun. Məni incidir, mən də onu beş-betər incidirəm".*



Bu sözləri aktrisa Pərvin Abıyeva "Həftənin qonağı" verilişində deyib. Sənətçi sosial şəbəkədə ona yazılan təhqirlərdən danışıb.

Geyimlərindən danışan Abıyeva son vaxtlar açıq-saçıq libaslardan istifadə etmədiyini bildirib: "Məşhur adamlarda qınaq olur. İstədiyin kimi yaşıya bilmirsən, geyinmirsən. Azad ruhlu insanam: geyimimdə, danışığımda özünü göstərir. Çox şey geyimlə, danışıqla deyil. Müəyyən bir vaxta qədər daha açıq geyinirdim. Son vaxtlar açıq geyinə bilmirəm. 2-3 bundan əvvəl rahat çimərliyə gedirdim, cəmiyyət içində çimərlik geyimində olurdum. Artıq yox... Utanıram. Dənizə xaricdə gedirəm, Azərbaycanda yox. Çəkilişdən ehtiyat edirəm, abır gəlib. Yaşın verdiyi bir şeydir, nədir bilmirəm. Amma rahat deyiləm".

# "O yaşlı müğənnini efirə çağırırlar ki, həmkarlarını söysün" - Faiq Ağayev

*"Bir personaj var... O kanaldan çıxıb, digərinə girir. 1865-ci ildə bir dənə mahnı oxuyub... O tarixdən bu tarixə kimi bir dənə də olsa yeni mahnı oxumayıb. Yaşlı insandır, onu efirlərə çağırırlar ki, başqa insanları söysün. Ay qardaş mahnını oxu da... Sənin şöhrətli və şanlı sənət yolunda olmayıb ki, biz köhnə "baqajına" görə sənə hörmət edək".*



"Unikal" bizim.media-ya istinadən bildirir ki, bu sözləri Xalq artisti Faiq Ağayev qonaq olduğu "Xəbərin var?" maqazin verilişində deyib.

Sənətçi yaşlı nəslin nümayyəndəsi olan həmkarının efirlərdə gəncləri tənqidedici çıxışlarını sərt şəkildə qınayıb: "O şəxsin cəmi bir mahnısı var. O da ki, böyük bir sənətkarın qanadının altında gizlənmişdi. O şəxs isə bir qrupun solisti idi. Çağırmayın da bu insanı efirə. Böyük cavana düşmən kəsiləndə dərhal mənə də düşmən kəsilir. Çünki mən bu sənətə gələnə qədər çox sayda "Hələ sən cavansan çox şeylər olacaq. Hara tələsirsən..." kimi kəlmələri eşitmişəm. Dolayısı ilə onlar mənim və bir sıra müğənnilərin önünə çəpər qoyurdular. Ona görə gənclərə yalnız dəstək durmaq lazımdır. Təbii ki, əgər o və mahnısı buna layiqdirsə. Dur onun arxasında, kömək elə... Biz əgər pisləri qınayırıqsa və zövqümüzü xərəb olmasında günahlandırırıqsa, yaxşıları da zamanında tərifləmək lazımdır".

# "Evi olmayan kişiyə ərə getməzlər" - Model Səmra Hüseynova

*"Evi olmayan kişiyə ərə getməzlər". "Unikal" bizim.media-ya istinadən bildirir ki, bu sözləri "Miss Azerbaijan 2019"un qalibi, model Səmra Hüseynova qonaq olduğu "Xəbərin var?" maqazin verilişində deyib.*



Səmra bildirib ki, evi olmayan kişi ilə ailə qurmaz: "Ailə qurursunuz, qeydiyyata düşmürsünüz, sonra da deyirsiniz ki, bizə heç nə qalmadı. Evsiz kişiyə necə ərə getmək olar? Belə çıxır ki, dünyaya gələcək uşağı küçədə böyüdəcəksən? Şəxsən mən evsiz böyümüşəm və bunun da nə olduğunu çox gözəl bilirəm. Evsiz böyümək heç bilirsiniz nə deməkdir? Uşağını böyüdürsən onun məhlədə dostları olur. Bir il sonra o məhlədən köçürsən o uşaq həsrət qalır dostlarına və getdiyi məktəbinə. Axı evsiz necə uşaq böyütmək olar?! Xeyr, mən "Evi olmayan kişiyə ərə getmək" fikri ilə qətiyyən razı deyiləm. Bu kimi məsələlər mənlik deyil. Mən bunun qəti əleyhinəyəm. İnsan aşıq olar 3 - 4 gün və ya 5 ay... Axı bundan sonra uşaq olmaq məsələsi var. Mən çox məntiqli düşünürəm. Mənim qabağıma çıxan kişilərin qarnı yekə, saçları isə ağarmışdı. Mən isə istəyirəm ki, qarşıma Hollivud aktyoru Bred Pitt kimi yaraşıqlı kişi çıxsın. Bədəni və görünüşü onun kimi gözəl olsun".



# "Salonda qızlar deyirlər ki, xanımlar gəlir..." - Nazpəri Dostəliyeva

***Xalq artisti Nazpəri Dostəliyeva özünü ona bənzədənlərdən danışıb.***

"Unikal" olay-a istinadən bildirir ki, sənətçi bu barədə "Rəngarəng səhər" proqramında açıqlama verib:

"Salonda qızlar deyirlər ki, xanımlar gəlir deyir bizi Nazpəriyə oxşat. Belə hallar çoxdur. Onları sevgi kimi qəbul edirəm. Məni sevirlər ki, özlərini mənə oxşadırlar. Sevməsəydilər, başqa müğənniyə bənzədərdilər. Bu, məndə qıcıq yaratmır. Amma tövsiyə edirəm ki, özünüz olun, kölgədə qalmayın. Siz Nazpərinin kölgəsində qalacaqsınız ki, Nazpəriyə oxşayan qız. Biri də var ki, desinlər, filankəs müğənni. Bir ana, böyük, bacı kimi sizin mənə olan sevginin qarşılığı budur ki, siz kölgədə qalmayasınız".

# "Xanımımın telefonuna baxmağı özümə təhqir hesab edirəm" - Coşqun Rəhimov

***"Heç kimin telefonuna əlimi uzatmaram. Evdə nə uşaqların, nə yoldaşımın".***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu sözləri Əməkdar artist Coşqun Rəhimov "Şən gənc" verilişində deyib. Aktyor həyat yoldaşının telefonunu yoxlamaqla bağlı sualları cavablandırıb.

"Bunu özümə təhqir bilərəm. İnamsızlıqdan irəli gəlir ki, telefonu koda qoymusan. Niyə, məndən, ondan şübhələnirsən? İnanmır onda" deyə, C.Rəhimov bildirib.

# Samir Cəfərov telekanal açıb

***Xalq artisti Samir Cəfərov telekanal açıb.***

Müğənni bu haqda "Söhbət var" verilişində danışıb. O bildirib ki, kanalda bir çox mövzuda verilişlər yayımlanır: "Əvvəl internet üzərində idi, indi platfomrya daxil olmuşuq. Azərbaycan filmləri, mahnılar yayımlayırıq. Elə filmlər axtarıb tapmışıq ki... Zövqsüz təbəqə bizdə yoxdur. Konsertlər, verilişlər çəkib yayımlayırıq. Sirk veririk, moda, dünya musiqisi veririk. Biz ingilis, rus və Azərbaycan dilində yayımlanmaq hüququ almışıq. Çox çətin bir sahədir. Müğənnilərə zəng edirəm ki, demirdiniz, biz belə bir televiziya istəyirik. İndi gəlin".



# Neftin qiymətinin ucuzlaşması büdcəyə necə təsir edəcək?

## Vüqar Bayramov: "Qiymətin real olub-olmaması həm də siyasi səbəblərlə bağlı olduğuna görə qiymət birbaşa növbəti dövrdəki qlobal və regional dəyişikliklərdən asılı olacaq"

***Xəbər verdiyimiz kimi, Azərbaycanda neftin büdcə qiyməti 75 dollara qaldırılır. Belə ki, 2024-cü il üzrə dövlət büdcəsində "Azeri Light" markal neftin 1 barelinin orta ixrac qiymətinin 15 ABŞ dolları artırılması nəzərdə tutulur.***

İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə dəyişikliklər edilib, neftin bir barelinin orta illik ixrac qiyməti 60 ABŞ dollarından 75 ABŞ dollarına (ilin ötən dövrü üzrə faktiki satış qiymətləri və ilin qalan dövrü üzrə 70 ABŞ dolları fərz edilməklə, öncəki proqnoza nəzərən 15 ABŞ dolları çox) yüksəldilib.

Son günlər isə neftin qiymətində azalma müşahidə olunur. Bəs görəsən bu azalma büdcədə dəyişikliyə təsir edəcək?

İqtisadçı deputat Vüqar Bayramov "Unikal"a açıqlamasında bildirib ki, neftin dünya bazar qiyməti proqnozlaşdırılması çətin olan qiymətdir. Onun sözlərinə görə, dünyanın aparıcı şirkətləri belə neftin dünya bazar qiymətini proqnozlaşdırmaqdan çəkinirlər:

"Bu, yalnız iqtisadi faktorlarla deyil, həm də siyasi səbəblərlə bağlıdır. Bu amillər də neftin qiymətinə təsir göstərir. Hazırda Brent markalı neftin qiyməti 77 dollardır. Doğrudur, son günlər neftin qiymətində azalmalar müşahidə etmişik. Amma ilk 5 ayın yekunlarında neftin qiyməti yüksək olub. Bu da illik olaraq neftin orta qiyməti ilə bağlı müəyyən proqnozları verməyə imkan yaradır. Amma qiymətin real olub-olmaması həm də siyasi səbəblərlə bağlı olduğuna görə qiymət birbaşa növbəti dövrdəki qlobal və regional dəyişikliklərdən asılı olacaq".

Deputat qeyd edib ki, neftin qiymətinin proqnozlaşdırılmasında və eyni zamanda müəyyənləşdirilməsində siyasi faktorlar üstünlük təşkil etdiyi üçün hər zaman risk var: "Bu risk proqnozlaşdırılma zamanı nəzərə alınır. Büdcə dürüstləşdirilməsində neftin qiymətinin artırılması daha çox işğaldan azad olunmuş ərazilərimizin bərpasına, milli təhlükəsizliyimizin daha da gücləndirilməsinə vəsaitləri artırmaqdan ibarətdir. Digər istiqamətlərdə də vəsait artımları var. Amma prioritet iki istiqamətdir. Bu vəsait xüsusən işğaldan azad olunmuş ərazilərimizin bərpasına müsbət təsir göstərəcək. 2024-cü il üçün neftin qiyməti ilə bağlı proqnoz ondan ibarətdir ki, əgər mövcud qlobal və regional status-kvo qorunub saxlanarsa, o zaman neftin qiymətinin 70 -80 dollar intervalında dəyişəcəyi proqnozlaşdırılır. Neftin qiymətinə iqtisadi faktorlarla yanaşı siyasi amillər də təsir göstərdiyinə görə, qlobal siyasətdə ciddi dəyişikliklər baş verərsə, o zaman neft bazarında volatillik arta bilər. Amma mövcud iqtisadi və siyasi şərtləri nəzərə alsaq, bu halda neftin qiymətinin hər barel üçün 70-80 dollar intervalında dəyişməsi daha inandırıcı görsənir".

***Anar Kəlbiyev***

# Sahil Babayevin kreslo talaşı

## Mustafa Abbasbəyli sosial müdafiə sistemindən niyə uzaqlaşdırıldı?

***Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Mustafa Abbasbəyli vəzifəsindən azad edildi. Bildirildi ki, o, bundan sonra fəaliyyətini Mədəniyyət Nazirliyində davam etdirəcək.***

Belə ki, M.Abbasbəyli Mədəniyyət Nazirliyi Aparatının rəhbəri təyin olunub.

Qeyd edək ki, M. Abbasbəyli 2 iyul 2020-ci ildən etibarən Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri idi.Onun rəhbərlik etdiyi qurumun fəaliyyəti ilə bağlı zaman-zaman müxtəlif tənqidlər səsləndirilsə də, İdarə Heyəti sədrinin görəvindən uzaqlaşdırılması ictimai rəydə gözlənilməz qarşılandı. Məsələ burasındadır ki, adıçəkilən agentliyin ünvanına media və ekspertlər tərəfindən müəyyən iradların səsləndirilməsinə baxmayaraq, Abbasbəylinin müxtəlif məsələlərə yenilikçi, eyni zamanda sıravi vətəndaş maraqlarından reaksiyası təqdirlə qarşılanırdı. Məsələn, o, çıxışlarının birində bildirmişdi ki, hər il 80 min insan əmək bazarına peşə kvalifikasiyası ilə daxil olur. Qalan 40-50 min insanın isə peşə kvalifikasiyası yoxdur. O, əlavə etmişdi ki, qarşımızda duran ən vacib məsələlərdən biri bu çatışmazlığı aradan qaldırmaqdır. Digər tərəfdən isə Abbasbəyli Azərbaycan bazarında düzgün kadr potensialının yetişdirilmədiyinə işarə vurmuşdu: "Etiraf edək ki, Azərbaycanda kifayət qədər çox müasir peşələrə sahib kadrlara ehtiyac var. Biz bir tərəfdən danışırıq ki, kifayət qədər çox iş axtaranlarımız var. Amma nəticədən danışmırıq. Niyə bu qədər çox iş axtaran var? Çünki onların peşə kvalifikasiyası bu günkü əməkbazarına uyğun deyil".

Dövlət Məşğullu Agentliyinə rəhbər təyinatından öncə isə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri, Pensiya siyasəti və fərdi uçota nəzarət şöbəsinin müdiri vəzifəsini tutarkən Mustafa Abbasbəylinin bəzi məsələlərə açıq və kreativ yanaşması maraq doğururdu. O, "Facebook" sosial şəbəkəsindəki şəxsi səhifəsindən mütəmadi olaraq pensiya sistemi ilə bağlı diqqətçəkən paylaşımlar edir və həmin paylaşımlar vətəndaşlar tərəfindən əsasən təqdirlə qarşılanırdı.

Bütün bunlar isə bəzi dairələrdə belə bir ehtimalın yaranmasına gətirib çıxarmışdı: istər KİV-də, istərsə də ictimaiyyət arasında son illərdə ciddi tənqid hədəfinə çevrilmiş iri məmurların ön sıralarında gələn əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin postuna ən ciddi namizəd məhz Mustafa Abbasbəylidir.

Qeyd edək ki, 44 yaşlı Abbasbəylinin dövlət aparatında yüksəlişi qəfil başlamışdı. O, 2019-cu ildə gözlənilməz şəkildə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müşaviri, Pensiya siyasəti və fərdi uçota nəzarət şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdi. Həmin vaxtadək isə Mustafa müəllimin karyerası bir qayda olaraq özəl sektorla bağlı idi. Məsələn, "Standard Insurance" sığorta şirkətinin İdarə Heyətinin sədr müavini, "ISR Auto/Toyota Baku" şirkətinin Baş direktoru, 2016-2018-ci illərdə Beyli Group şirkətinin Baş direktoru... Yalnız 2019-cu ildə Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri vəzifəsinə gətirilən, eyni zamanda da Pensiya siyasəti və fərdi uçota nəzarət şöbəsinin müdiri postunu tutan Abbasbəyli cəmi bir il sonra Dövlət Məşğulluq Agentliyinin rəhbərliyinə gətirildi.

Güman etmək olar ki, onun dövlət aparatında qəfil, lakin sürətli başlayan karyerası eyni sürətlə yüksəlməyə davam edəcək. Yuxarıda da vurğuladığımız kimi, bir çoxları haqqındakı çoxsaylı şikayətlər və tənqidlər səbəbindən Sahil Babayevin nazir postundan kənarlaşdırıla biləcəyini, onun yerinə məhz Mustafa müəllimin təyin olunacağını proqnozlaşdırırdılar. Haqqındakı ara-sıra mediada yer alan tənqidləri nəzərə almasaq, Abbasbəylinin reputasiyasının Sahil Babayevin reputasiyası ilə müqayisədə qat-qat təmiz olması da belə proqnozların reallaşma ehtimalını xeyli artırırdı. Hətta Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəhlizlərində də bu barədə danışıldığı iddia edilir.

Bütün bunların fonunda Mustafa Abbasbəylinin sosial müdafiə sistemindən kənarlaşdırılması və karyerasında eniş kimi qiymətləndirilə biləcək vəzifəyə getməsi maraq doğurmaya bilməz. Bunun səbəblərinə toxunan qaynaqların bildirdiyinə görə, Sahil Babayev məhz yuxarıda yazdıqlarımız ucbatından son zamanlar Abbasbəyli ilə gizli ixtilaf yaşayırmış. Onların münasibətlərinin xeyli soyuduğunu deyən mənbələrə inansaq, Mustafa müəllimi özünə potensial rəqib kimi görən Babayev Dövlət Məşğulluq Agentliyinin rəhbərini sıxışdırmağa başlayıbmış. İş o yerə çatıb ki, əmək və əhalinin sosial müdafiəsi naziri ilə işləməyin mümkünsüzlüyünü görən Agentlik rəhbəri "könüllü" şəkildə bu postdan ayrılmaq qərarına gəlib.



Qayanqlar onu da vurğulayırlar ki, Abbasbəylinin Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən getməsi Sahil Babayevin öz postunda möhkəmlənməsi anlamına gəlmir. Nazirlə bağlı ictimai rəydə və mediadakı mənfi təəssürat davam edərsə, onun vəzifəsindən kənarlaşdırılması qaçılmaz olaraq qalacaq. Belədə isə Babayevin özünə rəqib gördüyü Abbasbəylinin hazırda hansı postda çalışmasından asılı olmayaraq Sahil müəllimi əvəzləmək ehtimalı onsuz da yenə qüvvətlənə bilər...

***Sənan Mirzə***

18_27 IYUl-QARA.qxd 6/6/2024 7:02 PM Page 4



# Delimitasiyanın növbəti mərhələsi çətin olacaq

## Ermənistanın baş naziri Nikol Paşinyanın strateji yüksəklikləri geri qaytarmaq üçün hərbi plana yaşıl işıq yandıracağı ehtimalı azdır, bu ona və ölkəsinə baha başa gələr



***Ermənistanın Göyçə mahalının qubernatoru Karen Sarkisyanın ölkə parlamentində jurnalistlərin suallarını cavablandırarkən "Ermənistan Azərbaycan qoşunlarının Göyçə mahalından çıxarılması üçün başqa vasitələrə əl atacaq" açıqlaması blefdir.***

Bunu politoloq Elxan Şahinoğlu məlum açıqlamaya münasibət bildirərkən deyib. "Karen Sarkisyan Azərbaycan qoşunlarının Göyçə bölgəsinin ərazilərindən geri çəkməsinin vacibliyini səsləndirdikdə erməni jurnalistin "bəs geri çəkilməsələr hansı addım atılacaq" sualına yaxalanıb və "bu halda güc variantından istifadə edilə bilər, ancaq bu son variantdır" cavabını verib. Görünür, erməni qubernatorun jurnalistin sualına cavab vermək üçün başqa variantı qalmayıb. Həmin qubernatora da yaxşı bəllidir ki, Azərbaycan ordusu iki il əvvəl nəzarətə götürdüyü strateji yüksəklikləri tərk etməyəcək".

Siyasi ekspertin sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyanın strateji yüksəklikləri geri qaytarmaq üçün hərbi plana yaşıl işıq yandıracağı ehtimalı azdır, bu ona və ölkəsinə baha başa gələr.

"Paşinyan da bunun fərqindədir və elə ona görə də həmin mövzuda açıqlama vermir. Eyni zamanda erməni qubernatorun açıqlaması ona dəlalət edir ki, növbəti mərhələdə iki ölkə arasında sərhədin müəyyənləşməsi asan olmayacaq, bu gözlənilən idi", - E.Şahinoğlu deyib.

Xatırladaq ki, Azərbaycanla Ermənistan arasında sərhədin Göyçə mahalı istiqamətindəki döyüşlər tarixə "Sentyabr döyüşləri" adı ilə düşüb. 2022-ci ilin 13-14 sentyabr əməliyyatından sonra Azərbaycan-Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib.

Bu gün həmin strateji yüksəkliklərdən Ermənistanın Qarakilsə, Qafan, Gorus şəhərlərinə nəzarət etmək mümkündür. Azərbaycan ordusu Bala Göyçə gölünün sahilində mövqe tutub.

Qeyd edək ki, aprel-may aylarında aparılan delimitasiya işləri nəticəsində Ermənistanla Azərbaycan arasında 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilərək rəsmiləşib. Nəticədə Azərbaycan Respublikasının Qazax rayonunun 1992-ci ildən bəri işğal altında olan 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 km2) Azərbaycana qaytarılması təmin edilib.

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədi üzrə delimitasiya işlərini aparan komissiyalar prosesin növbəti mərhələsi barədə hələ ki açıqlama verməyiblər. Komissiyaların rəhbərləri indiyədək 9 dəfə görüşüblər. Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasına baş nazirin müavini Şahin Mustafayev rəhbərlik edir. Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyaya isə baş nazir müavini Mher Qriqoryan sədrlik edir.

***T.Əliyev***

# Ermənilər başa düşüblər ki...

## Həsrət Rüstəmov: "Moskva ermənilərə Rusiyanın nəzarəti altında daha yaxşı vəziyyətdə ola biləcəklərini diktə etməyə çalışır"

***Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirib ki, Avropa İttifaqının Ermənistandakı monitorinq missiyası Azərbaycan, Rusiya və İran əleyhinə kəşfiyyat məlumatları toplayır.***

Nazir müavini qeyd edib ki, əgər 2022-ci ildə İrəvan KTMT-nin Azərbaycanla sərhəddə vəziyyətin sabitləşdirilməsi üzrə kompleks tədbirlərlə bağlı təklifini qəbul etsəydi, hazırda Ermənistanın üzləşdiyi risklərin çoxunun qarşısını almaq olardı: "Təəssüf ki, rəsmi İrəvan Avropa İttifaqının "monitorinq" adı altında sərhədlərin qorunması ilə deyil, Azərbaycan, İran və Rusiya əleyhinə kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olan missiyasını dəvət etməyi üstün tutdu".

Siyasi şərhçi Həsrət Rüstəmov Bakıvaxtı.az-a açıqlamasında deyib ki, Rusiya Ermənistanı tədricən itirdiyinin fərqindədir.



Ekspertin sözlərinə görə, Moskva ermənilərə Rusiyanın nəzarəti altında daha yaxşı vəziyyətdə ola biləcəklərini diktə etməyə çalışır: "Mixail Qaluzin və Rusiyanın digər rəsmiləri, həmçinin bu ölkənin siyasi şərhçiləri Cənubi Qafqazda yaranmaqda olan yeni geosiyasi durumla barışmaq əvəzinə tarixin təkərini geriyə çevirməyə yönəlmiş mənasız cəhdlərini davam etdirirlər. Ermənilər baş nazir Nikol Paşinyanın timsalında başa düşüblər ki, onlar rus imperiyasının yalnız Qafqazda destabilizasiya yaratmaq üçün lazımdırlar. Bu isə təbii ki, erməni xalqının heç vaxt normal dövlət qura bilməməsi deməkdir".

Onun sözlərinə görə, Avropa İttiaqının missiyasının da əsas məqsədi bizim bölgədə yaşayan xalqların rifahına xidmət etmək deyil: "Onların öz geosiyasi niyyətləri var və bu, əsasən bölgənin böyük tranzit imkanları ilə əlaqədardır. Qaluzinin gündəmə gətirdiyi təklifdə konkret hansı məsələlərin nəzərdə tutulduğunu bilməsək də, hər halda məntiqlə bizim deyil, ermənilərin xeyrinə olan bir plan olub. Onun baş tutmaması sevindiricidir".

# "Türk dünyasının güclənməsi heç kəsi narahat etməsin" - Kurtulmuş



***Türk dünyasının güclənməsi heç kəsi narahat etməsin. Biz yalnız ədalətli dünyanın qurulmasının tərəfindəyik və sülhü, əmin-amanlığı dəstəkləyirik.***

Bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş TÜRKPA-nın 13-cü plenar sessiyasında səsləndirib.

Çoxqütblü dünyanın yaranmasından danışan TBMM-in sədri qeyd edib ki, Türk dünyası ən mühüm geostrateji məkan olmaqla bərabər, özünün adət-ənənələri, təbiətinin zənginliyi ilə diqqət çəkir.

"Balans və ədalət qorunmalıdır. Bu gün Qəzza zolağında baş verən hadisələr, dinc insanlara zülm olunması, onların qətl edilməsi ədalətsizlikdir. Balans və ədalətə təbiət, siyasət, iqtisadiyyat və digər bütün sahələrdə riayət edilməlidir", - deyə Numan Kurtulmuş bildirib.

Həmçinin plenar sessiyanın mövzusu ilə bağlı fikirlərini bölüşən TBMM-in sədri iqlim dəyişikliyi ilə bağlı dünyanı narahat edən fəsadlar barədə danışıb. Onun sözlərinə görə, bu qlobal böhrandan xilas olmaq üçün insanın təfəkkürü dəyişməlidir. İnsanlar təbiətə ciddi ziyan vurmaqdan, onun həddindən artıq istismarından çəkinməlidirlər.

N.Kurtulmuş, Azərbaycana TÜRKPA-nın 13-cü sessiyasına və noyabr ayında keçiriləcək COP29-a ev sahibliyi üçün təşəkkürünü bildirib.

# Azərbaycan-Belarus Hökumətlərarası Komissiyanın iclası keçirilib

***İyunun 6-da Minskdə Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclası keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenkonun sədrliyi ilə keçirilən iclasda iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələri də iştirak ediblər.

İclasda tərəflər Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildiriblər.

İki ölkə prezidentlərinin fəal siyasi dialoqu, sıx təmasları və birgə səyləri nəticəsində ikitərəfli əlaqələrin dinamik inkişafından məmnunluq ifadə olunub.

Bununla əlaqədar olaraq, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana son dövlət səfərinin əhəmiyyəti qeyd edilib. İclasda tərəflər ikitərəfli əməkdaşlığın gündəliyində duran aktual məsələləri müzakirə ediblər. Azərbaycanın azad edilmiş ərazilərində iqtisadi-ticari, investisiya, sənaye və aqrar sahələrdə, eləcə də təhsil və birgə fəaliyyət istiqamətlərində dövlət başçılarının razılaşma və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib.

Tərəflər qarşılıqlı faydalı əməkdaşlığın bütün kompleksi üzrə konstruktiv dialoqu davam etdirməyə hazırlıq ifadə ediblər.

İclasın yekunlarına əsasən, Əli Əhmədov və İqor Petrişenko Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclasının protokolunu, habelə iki ölkə arasında əməkdaşlığın inkişafı üzrə 2024-2025-ci illər üçün yenilənmiş yol xəritəsini imzalayıblar.

# Prezident və nazir Ermənistan-Azərbaycan danışıqlarını müzakirə edib

***Ermənistan prezidenti Vaaqn Xaçaturyan iyunun 6-da xarici işlər naziri Ararat Mirzoyan ilə xarici siyasət problemlərini müzakirə edib və onların həlli istiqamətində iş aparıb.***

Prezidentin mətbuat xidmətinin məlumatına görə, görüşdə Mirzoyan Xaçaturyana beynəlxalq proseslər və ölkəyə təsir edən hadisələr barədə danışıb. Dövlət başçısı səmərəli fəaliyyətinə görə Xarici İşlər Nazirliyinin rəhbərinə təşəkkür edib. "Bu çətin şəraitdə siz Ermənistanı təhlükəsiz gələcəyə aparan daha yaxşı yollar tapırsınız", - Xaçaturyan bildirib.

Görüşdə Ermənistan-Azərbaycan danışıqlarının gedişi də müzakirə olunub.

Tərəflər iki qurum arasında əməkdaşlığın perspektivlərindən də danışıb və bir sıra məsələlər üzrə ümumi mövqenin işlənib hazırlanmasının mümkünlüyünü qeyd ediblər.

# Prezident daha bir icra başçısını işdən çıxardı



***Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Ağayev Asif 1961-ci ildə Sabirabad rayonunun Ulacalı kəndində anadan olib. 1988-ci ildə V. V. Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunu inşaatçı-mühəndis ixtisası üzrə bitirib.

O, 2013-2018-ci illərdə isə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

YAP-ın üzvüdür. Evlidir, 2 övladı var.

Qeyd edək ki, bir neçə gün əvvəl Prezident İlham Əliyev Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov da vəzifəsindən azad edib.

# Prezident COP29-la bağlı vergi güzəştlərini təsdiqlədi



***Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə əlaqədar vergi güzəştləri müəyyənləşib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanunu imzalayıb.

# Omandakı səfirimiz geri çağırıldı - Yeni təyinat

***Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Prezidentin digər Sərəncamı ilə Rəşad Fail oğlu İsmayılov Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

# TÜRKPA-ya sədrlik Azərbaycana keçdi

***Türk Dövlətləri Parlament Assambleyasına (TÜRKPA) sədrlik Türkiyədən Azərbaycana keçib.***

"Unikal"ın məlumatına görə, bu barədə TÜRKPA Şurasının Bakıda keçirilən 13-cü iclasında qərar qəbul edilib.

Belə ki, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş sədrliyi azərbaycanlı həmkarı Sahibə Qafarovaya təhvil verib.

# Əli Əsədov "Knauf" Şirkətlər Qrupunun nümayəndə heyəti ilə görüşüb

***İyunun 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Almaniyanın "Knauf" Şirkətlər Qrupunun nümayəndə heyəti ilə görüşüb.***



Nazirlər Kabinetindən "Unikal"a verilən xəbərə görə, görüşdə "Knauf" şirkətinin Azərbaycanda uzunmüddətli uğurlu fəaliyyəti barədə məlumat verilib.

Həmçinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə olunub.

# "Türk dövlətləri arasında əməkdaşlıq uğurla inkişaf edir" - Sahibə Qafarova

***"Qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda olduqca uğurla inkişaf edir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova TÜRKPA-nın "Türk Dünyası üçün Yaşıl Üfüqlər: Yaşıl Gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" mövzusuna həsr olunmuş 13-cü plenar iclasında deyib.

Sədr bildirib ki, çoxsaylı qarşılıqlı səfərlər, iqtisadi, enerji,



nəqliyyat və digər sahələrdə həyata keçirilən layihələr və atılan addımlar, beynəlxalq aləmdə birgə fəaliyyət və qarşılıqlı dəstək bu əməkdaşlığın geniş miqyasının bariz göstəricisidir.

"Bu, Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə göstərdiyi səylərin beynəlxalq ictimaiyyət tərəfindən tanınması və dəstəklənməsi deməkdir" - deyən sədrin sözlərinə görə, ölkəmizin bu mühüm beynəlxalq tədbirə evsahibliyi edən ölkə kimi yekdilliklə seçilməsi Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə göstərdiyi səylərin beynəlxalq ictimaiyyət tərəfindən tanınması və dəstəklənməsi deməkdir.

# Yüksəkixtisaslı Miqrant Proqramı təsis edilir - Sərəncam

***Prezident İlham Əliyev "Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.***

"Unikal"ın xəbərinə görə, Sərəncamla yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı (bundan sonra - Proqram) təsis edilir.

Nazirlər Kabinetinə proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış yüksəkixtisaslı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (bundan sonra - yüksəkixtisaslı miqrant) və onların ailə üzvlərinə münasibətdə tətbiq ediləcək güzəştləri (ölkədə olmaq, yaşamaq və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun əldə edilməsi üçün tələb olunan sənədlər və onların sayı, icazələrin müddəti, iş icazəsi tələbindən azad olunma, müraciətlərə baxılma müddəti və s.) müəyyən edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarlarını və qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, Sərəncamda nəzərdə tutulan portal haqqında əsasnaməni və həmin portala inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısını üç ay müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək və Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti:

3.1. Proqram iştirakçılarının müraciətlərinin qəbulunu və cavablandırılmasını "bir pəncərə" prinsipi əsasında təmin edən portalın (bundan sonra - portal) yaradılmasını iki ay müddətində təmin etsin;

3.2. portala daxil olan müraciətlərə baxılmanı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan "Yüksəkixtisaslı miqrantlar" altsistemi vasitəsilə həyata keçirsin;

3.3. portalda olan fərdi məlumatların və portal vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə Proqramın təbliğ və təşviq olunmasını təmin etsin.

# DTX ilə bağlı fərman imzalandı

***"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişikliklər təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb.

Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tərkibi dəyişdi

***Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Müşahidə Şurasının tərkibi dəyişib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müavfiq Sərəncam imzalayıb.

Sərəncama əsasən, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, üzvləri isə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturun maliyyəsi şöbəsinin müdiri Ədalət Əliyev və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini Xəyyam Məmmədov təyin edilib.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyevdən mühüm mesaj: "Bizim ailəmiz Türk dünyasıdır, başqa ailəmiz yoxdur"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul edib.***

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-İlk növbədə, xoş gəlmisiniz. Sizin hamınızı səmimiyyətlə salamlayıram. Əminəm ki, TÜRKPA-nın növbəti plenar iclası yaxşı nəticələr verəcək. Belə toplantılar bir qayda olaraq Türk dünyasının birliyinin təzahürü olur, əminəm ki, Bakı toplantısı da istisna olmayacaq. Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir.



Bildiyiniz kimi, mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Mən hesab etdim ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etməz. Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda, hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. O görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı olacaq. Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. Orta Dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılması göz önündə olan məsələlərdir. Burada Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərir. Mən hesab etdim ki, indiki zəmanədə Orta Dəhlizin potensialına dünyada daha böyük ehtiyac var. Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq.

İqlim məsələləri isə bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, Azərbaycan bu il COP29 konfransına ev sahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir.

Zirvə görüşünün Şuşada keçirilməsi təbii ki, böyük rəmzi məna daşıyır. Şuşa 4 ilə yaxındır ki, işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Yəni bütün bunlar bir daha birliyimizi göstərir. Bu fürsətdən istifadə edərək mən qardaş ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Onu da qeyd etməliyəm ki, azad edilmiş ərazilərdə bu gün geniş yolnəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir. Yəni biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir.

Azad edilmiş torpaqlarda həyat bərpa olunur. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. Yeddi mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, TÜRKPA-nın bugünkü toplantısı böyük əhəmiyyət daşıyır. Əminəm ki, müzakirə ediləcək məsələlər bizim birliyimizi daha da gücləndirəcək. Eyni zamanda, hər dəfə qardaş ölkələrdən yüksəkvəzifəli şəxslər ölkəmizə gələndə, bu, bizi sevindirir. Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur.

Bir daha sizi salamlayıram, xoş gəlmisiniz. Sizə xoş səfər arzulayıram.

## "Unikal" 14 yaşını qeyd edir

***"Unikal" qəzeti və "Unikal.az" xəbər portalının fəaliyyətə başlamasının 14 ili tamam olur.***

İlk dəfə oxucularla görüşə 2010-cu il iyunun 6-da gələn "Unikal" qəzeti hazırda həftədə bir dəfə dərc olunur. Qəzet Medianın İnkişafı Agentliyindən (MEDİA) maliyyələşir və layihə icra edir.

Unikal.az Xəbər Portalı uzun illərdir aktiv xəbər yayımını həyata keçirir və fəaliyyətə başladığı gündən oxucuların qarşısına ölkədə və dünyada baş verən eksklüziv, dəqiq, operativ xəbərlərlə çıxır.

Hazırda saytın oxucuları müxtəlif sosial qrupları təmsil edən auditoriyadan ibarətdir. Sayt Azərbaycanda fəaliyyət göstərən ictimai-siyasi təşkilatlar, sosial qruplar, dövlət qurumları ilə əməkdaşlıq edir.

## Agentlik yoxlama apardı, 60 müəssisədə nöqsanlar aşkarlandı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ölkəmizdə keçirilməsi ilə əlaqədar nəzarət tədbirlərini davam etdirir.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a verilən məlumata görə, iyunun 5-də 15 ticarət və 48 ictimai iaşə müəssisəsində monitorinq keçirilib. Monitorinqlər zamanı 13 ticarət və 47 ictimai iaşə müəssisəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu aşkarlanıb.

Aşkar edilmiş nöqsanlar qida təhlükəsizliyi qeydiyyatının alınmasına dair çıxarışın yoxluğu, məhsulların minimum keyfiyyətini və təhlükəsizliyini təsdiq edən müşayiətedici sənədlərinin mövcud olmaması, izləmə sisteminin (QR kod) tətbiq olunmaması, mal qonşuluğu prinsipinin pozulması, temperatur rejiminin gözlənilməməsi, süd məhsullarının tələblərə uyğun etiketlənməməsi, vitrində yerləşdirilməsi və xüsusi işarələrin qoyulmaması, etiket məlumatları və mənşəyi məlum olmayan məhsulların mövcudluğu, sanitar-gigiyenik və sanitar-texniki vəziyyətin qeyri-qənaətbəxş vəziyyəti, mütəmadi olaraq təmizlik və dezinfeksiya işlərinin aparılmaması, obliqat qrupuna daxil olan işçilərin ilkin və dövrü tibbi müayinədən keçməməsi və sanitar geyimlə təmin edilməməsi və s. səbəblərlə əlaqədardır.

Aşkarlanmış nöqsanların aradan qaldırılması ilə bağlı məsul şəxslərə icrası məcburi göstərişlər verilib.

"Nəzarət tədbirləri COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar ölkəyə gələcək xeyli sayda xarici qonaqlara yüksək səviyyədə və təhlükəsiz qidalanma xidmətlərinin göstərilməsi məqsədilə həyata keçirilir", - deyə AQTA-dan bildirilib.

18_27 IYUI-QARA.qxd 6/6/2024 8:21 PM Page 7



## Ölkəmiz BTİ-nin Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına ev sahibliyi edəcək



***4 iyunda İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) Şurasının illik sessiyası işə başlayıb. İclasda ölkəmizi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndə heyəti təmsil edir.***

”Unikal” xəbər verir ki, sessiya çərçivəsində aparılan müzakirələr nəticəsində Azərbaycanın təşkilatın 2025-ci ildə keçiriləcək Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına (ÜTİK) ev sahibliyi təsdiq edilib.

Qeyd edək ki, MDB regionundan ilk dəfə Azərbaycan bu tədbirə ev sahibliyi etmək imkanını əldə edib.

ÜTİK BTİ-nin kibertəhlükəsizlik, rəqəmsal inklüzivlik, İKT tətbiqləri, innovasiya, İKT üzrə statistika və indikatorlar, İKT-nin tənzimlənməsi və digər bu kimi sahələr üzrə inkişafa dair mövzuları, layihələri və proqramları nəzərdən keçirmək üçün dörd ildən bir təşkil olunan ən böyük və önəmli tədbirlərindən biridir. Tədbir sahə üzrə qlobal liderləri, mütəxəssisləri və digər maraqlı tərəfləri bir araya gətirərək İKT-nin gələcək inkişafını müzakirə etmək və strategiyalar hazırlamaq məqsədi daşıyır.

Məsələyə dair müzakirələr zamanı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bəyanatla çıxış edərək ölkədə İKT infrastrukturunun inkişafı, rəqəmsal transformasiya sahəsində görülən işlər, əldə olunan nailiyyətlər barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Nazir müavini ölkədə İKT sahəsində həyata keçirilən təhsil layihələri haqqında danışıb. “Technest”, “Technion” və “Digital Academy” kimi təşəbbüslər gənc azərbaycanlıların rəqəmsal dövrdə tələb olunan bacarıq və biliklərini gücləndirir”.

Samir Məmmədov “Rəqəmsal Sənəd Dövriyyəsi” altsisteminin hazırlandığını və bu altsistemin dövlət orqanları arasında sənədlərin real vaxt rejimində, təhlükəsiz mübadiləsini asanlaşdırdığını diqqətə çatdırıb.

Nazir müavini, həmçinin əlavə edib ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin icra etdiyi “MyGov” vətəndaşların rəqəmsallaşma prosesinə cəlb edilməsi baxımından ən əhəmiyyətli layihələrdəndir. “MyGov” hər bir dövlət qurumu üçün ayrıca portallara və ya qeydiyyata ehtiyac olmadan dövlət xidmətlərinə onlayn müraciət etmək üçün bir pəncərə rolunu oynayır”.

Samir Məmmədov bir çox vacib beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etmiş Azərbaycanın telekommunikasiya sahəsindəki öhdəliklərə və İKT sahəsi üzrə qlobal dialoqa verdiyi önəmi bir daha vurğulayıb. Müzakirələr nəticəsində Azərbaycanın ev sahibliyi barədə qərar Şura tərəfindən yekdilliklə təsdiq edilib.

Azərbaycanın belə mötəbər bir tədbirə ev sahibi olaraq təsdiq edilməsi ölkənin telekommunikasiya sahəsində artan nüfuzunun, eləcə də BTİ ilə uzun illər ərzində aparılan uğurlu əməkdaşlığın nəticəsidir.

## Kamran Əliyev bu xanımlara yüksək vəzifə verdi

***Baş Prokurorluqda təyinatlar olub. Baş prokurorluğun Mətbuat xidmətindən ”Unikal”a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən Ədilə Əfəndiyeva, Nigar Hüseynquliyeva və Gültac İsgəndərli Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorları təyin olunub.***

Bildirilib ki, qeyd olunan şəxslərin prokurorluq orqanlarında səmərəli fəaliyyəti, peşəkarlığı, işgüzarlığı, bilik və bacarığı nəzərə alınmaqla onlar vəzifədə irəli çəkilib.

Qeyd olunub ki, bu təyinata qədər Ədilə Əfəndiyeva Bakı şəhər prokurorluğunda şöbə prokuroru, Nigar Hüseynquliyeva Şirvan şəhər prokurorunun köməkçisi, Gültac İsgəndərli isə Balakən rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsində çalışıb.

Prokurorluq orqanlarında islahatlar davam etdirilərək gender bərabərliyi nəzərə alınmaqla gənc, peşəkar və savadlı kadrların komplektləşdirilməsi bundan sonra da həyata keçiriləcək.

## Nöqsanlara görə çıxarılan direktorun yerinə təyinat

***Xırdalan şəhər 9 nömrəli tam orta məktəbə yeni direktor təyin olunub.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bu vəzifəyə Şahin Yusifov təyinat alıb.

Ş.Yusifov bundan əvvəl Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin direktoru işləyib. Qeyd edək ki, bir neçə gün əvvəl Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin direktoru Həcər İbrahimova işində yol verdiyi nöqsanlara görə işdən çıxarılıb.

***Anar Kəlbiyev***

# “Bağ evlərində də kəskin qiymət artımı müşahidə edirik”

### Ramil Osmanlı: “İstər regionlarda, istərsə də Bakıətrafı ərazilərdə turizm məqsədləri üçün qısamüddətli dövrdə istifadə olunan fərdi yaşayış evlərinin qiymətinin artımı təbii və başadüşüləndir”



***Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı ”Unikal”a müsahibə verib. O, yay mövsümündə kirayə mənzil qiymətlərinin necə olacağından, bahalı bağ evlərinə tələbatın olub-olmamasından, hazırda mənzil və avtomobil bazarında qiymətlərin necə dəyişdiyindən danışıb.***

***-Ramil müəllim, əvvəllər yay mövsümündə kirayə mənzillərə tələbat azalırdı. Belə ki, paytaxtda təhsil alan tələbələrin regionlara qayıtmasından sonra kirayə evlərin sayı artırdı və bu da qiymətə təsir göstərirdi. İndi necə, yay fəslində kirayə mənzillərin qiymətində azalma gözlənilirmi?***

-Son illərdə kirayə mənzil bazarının təklif portfelinin məhdudlaşması artıq tələbələri də bir qədər ehtiyatlı davranmağa məcbur edib. Hansı tələbə növbəti tədris ilində Bakıda qalacaqsa, onlar adətən kirayə yaşadıqları ev sahibi ilə razılaşmaya gəlirlər. Məsələn, qiymətin yarısını ödəməklə yay aylarında da evi saxlayırlar. Bu cür addımlardan istifadə olunur və həmin evlər boş qalmır. Əvvəllər yay aylarında təklif artdığı üçün qiymət düşürdü. Avqust-sentyabr ayına doğru isə tələb artırdı və qiymətlər yüksəlirdi. İndi isə evlər boşalmadığı üçün kirayə mənzil bazarında qiymət azalması müşahidə olunmur.

***-Yay aylarında həm Bakıətrafı ərazilərdə, həm də regionlardakı bağ evlərinə tələb artır. Tələbin çoxalması səbəbindən qiymətlərin də yüksəlməsi müşahidə olunur. Hazırda bu istiqamətdə vəziyyət necədir?***

-İstər regionlarda, istərsə də Bakıətrafı ərazilərdə turizm məqsədləri üçün qısamüddətli dövrdə istifadə olunan fərdi yaşayış evlərinin qiymətinin artımı təbii və başadüşüləndir. Belə ki, həmin şəxs özünə biznes sahəsi yaradıb və yanaşması bundan ibarətdir ki, 3 ay müddətində heç olmasa yarımillik dolanışığı üçün vəsait toplasın. Ona görə də bu tendensiya müşahidə olunur. Elə region var ki, yay mövsümündə gündəlik qiyməti 50 manata olan ev tapmaq mümkün deyil. Ümumiyyətlə, qiymət həmin fərdi yaşayış evinin mövcud şəraitindən, onun nəqliyyat infrastrukturundan, həyatyanı sahəsinin olub-olmamasından, həmin ərazidə turizm infrastrukturunun inkişafından və bir çox amillərdən asılıdır.

***-Məlum olduğu kimi, Bakıətrafı ərazilərdə aylıq qiyməti 20 min və ondan da yuxarı olan bağ evləri var. Onlara tələbat varmı?***

-Yay mövsümündə həmin bağ evlərində də kəskin qiymət artımı müşahidə edirik. Hazırda qeyd etdiyiniz bağ evlərində qiymət artımı başlayıb. Bakı və ətraf ərazilərdə bağ evlərinin qiyməti hardasa 2,5-3 dəfədən çox artır. Aylıq qiyməti 1200-1300 manatdan başlayaraq 10 000-15 000 manata və hətta daha yuxarı qiymətə olan bağ evlərinə rast gəlmək mümkündür.

***-Hazırda mənzil bazarında vəziyyət necədir?***

-Yay aylarında satış həcmi azalır. Bunu bu il də müşahidə edirik. Bu məqam əmlak bazarı üçün xarakterikdir. Hazırda heç bir qiymət artımı və ya azalması müşahidə olunmur. Doğrudur, tələb və müraciət azalıb, amma qiymət dəyişməsi müşahidə olunmur. Qiymətə makroiqtisadi və digər iqtisadi amillərlə yanaşı hər hansı inzibati qərar da ciddi təsir göstərə bilər. Ona görə də mənzil bazarında qiymətin necə dəyişəcəyini qabaqcadan söyləmək bir qədər çətindir. Məsələn, hökumət qərar qəbul edə bilər və bazarda vəziyyət əhəmiyyətli dərəcədə dəyişər. Sırf makroiqtisadi tərəflərlə baxsaq, təqribən sentyabr ayından mənzil bazarında alış-satış artacaq. Adətən mənzil bazarı ilə bağlı müraciətlər payız aylarına təsadüf edir. Yay mövsümü insanların daha çox turizmə diqqət etdiyi dövrdür.

***-Maşınların qiymətinin necə dəyişməsi də həmişə diqqət mərkəzində olur. Avtomobil bazarında qiymətlər necə dəyişir?***

-Maşın bazarındakı vəziyyət daha mürəkkəbdir. Avtomobil bazarında ekoloji standartlarla bağlı qərar qəbul olunub, elektromobil və hibrid avtomovbillərə maraq sürətlə artır. Ölkəmizdə sürətlə bu avtomobillərə keçid baş verir. Eyni zamanda, köhnə nəqliyyat vasitələrinin idxalına müəyyən məhdudiyyətlər qoyulub. Avtomobil bazarında mütəmadi olaraq qiymətlərin daha çox azalmasını müşahidə edirik. Yay aylarında avtomobil bazarında təklif azaldığına görə qiymətlərin nisbi artımı müşahidə olunur.

***Anar Kəlbiyev***

18_27 IYUI-QARA.qxd 6/6/2024 8:22 PM Page 8



# Anar Əliyevin aranı qarışdıran açıqlaması

## Nazir müavininin səsləndirdiyi rəqəm niyə "pripiska" şübhəsi doğurdu?

***Bu günlərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Milli Məclisdə komitə iclasında çıxışı zamanı bildirib ki, son 6 il ərzində Azərbaycanda 545 minə yaxın şəxs işlə təmin olunub.***

Lakin nazir müavininin açıqlaması ictimaiyyətdə birmənalı qarşılanmayıb. Sosial şəbəkələrdə A.Əliyevin açıqlamasına şübhə ilə yanaşanlar olub. Elə bəzi mütəxəssislər də onun dedikləri ilə bağlı tənqidi fikirlər dilə gətiriblər. Məsələn, iqtisadçı-ekspert Natiq Cəfərli bununla bağlı bildirib ki, son 6 ildə nə qədər adam işsiz qaldığını, işdən çıxdığını və işini itirdiyini demirlər. Ekspert qeyd edib ki, bu açıqlamanın özü də suallar yaradır: "İşlə təmin etmək deyəndə nəyi nəzərdə tuturlar, təsnifatı nədir, hansı sahələr üzrə iş yerləri yaranıb? Amma başqa məsələ də var. Müəllim son 6 ili deyir, gəlin rəsmi rəqəmlərə baxaq, muzdla, əmək müqaviləsi ilə çalışanların sayına nəzər yetirək.



2019-cu il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 mln. 551,7 min nəfər olub. 2024-cü ilin 1 yanvar tarixinə olan məlumata görə, Azərbaycanda muzdla çalışan işçilərin sayı 1 milyon 741,8 min nəfər olub. Yəni, son 6 ildə əmək müqaviləsi ilə, rəsmən çalışanların sayı 190 min nəfər artıb. Yaxşı, bu 545 min şəxs kimdir, harda işlə təmin ediliblər? Anar müəllim, bəlkə, detallı açıqlama verməyi öyrənəsiniz?"

Qeyd edək ki, A.Əliyev bundan əvvəlki çıxışlarında da Azərbaycanda işsizliklə bağlı mübahisə doğuran rəqəmlər səsləndirib. Həmin vaxt da ekspertlər bildirirdilər ki, xüsusilə bölgələrdə iş tapmaq problemi özünü qabarıq şəkildə göstərir. Yerlərdə bir sıra sənaye obyektlərinin sıradan çıxması, yenilərinin fəaliyyətə başlamaması vətəndaşların işlə təminatında çətinliklərlə üzləşməsinə gətirib çıxarır. Bunun nəticəsidir ki, son illər iş tapmaq məqsədilə vətəndaşlar paytaxta üz tutmalı olurlar. Bakıda isə bir neçə il öncə yaşanan "tikinti bumu" ilə bağlı işsizlik qismən aradan qalxsa da, artıq bu sahədə də səngimə müşahidə olunur. Nəticədə tikinti-inşaat sahəsində iş tapa bilməyən vətəndaşlar da işsizlər siyahısında yer alırlar.

Ən maraqlısı isə ondan ibarətdir ki, iki dövlət qurumunun - Dövlət Statistika Komitəsi ("Statkom") ilə Dövlət Məşğulluq Agentliyinin (DMA) rəsmi statistikasında belə, işsizlərlə bağlı 40 min fərq özünü göstərir. Onu da qeyd edək ki, bu gün bölgələrdə, o cümlədən kənddə yaşayan çox sayda sakinlər işsizliklə bağlı DMA-da qeydiyyata düşməyiblər.

Bütün bunların fonunda nazir müavininin ümumi rəqəmlər səsləndirməklə kifayətlənməsinin tənqidlərlə qarşılanması təbiidir. Natiq Cəfərlinin də vurğuladığı kimi, Anar müəllimin təfərrüatlı açıqlamasına ehtiyac var. İlk növbədə isə , son 6 ildə əmək müqaviləsi ilə, rəsmən çalışanların sayı 190 min nəfər artdığı halda A.Əliyevin dilə gətirdiyi rəqəmin (545 min) nəyə əsaslandığını bilmək yalnız iqtisadçıların deyil, geniş ictimaiyyətin də bilməyə haqqı var.

Onu da deyək ki, Anar müəllimin yüksək post tutduğu nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin vətəndaşları işlə təminat baxımından səsləndirdiyi rəqəmləri hətta deputatlar da şübhə altına alırlar. Onların çıxışlarından işsizlik məsələsinin ölkənin əsas problemlərindən biri olduğu aydın görünür. Məsələn, bu yaxınlarda deputat Jalə Əliyeva parlamentdəki çıxışında elə beləcə də demişdi: "Ürəyim əsir ki, qəbullarda bizə müraciət edən seçicilər işlə bağlı müraciət etməsin. Çünki kömək etmək mümkün deyil, bu, çox çətin olur. Vətəndaşlar dövlət qurumlarının qapısı arasında sanki yol ölçürlər. Vətəndaşla qurum arasında körpü rolunu oynamağa çalışsaq da, bizə verilən cavablar formal olur..." Jalə xanım oxşar mövzuda daha öncəki çıxışında isə demişdi: "İş yerləri azdır, demək olar ki, yoxdur. Artıq rayon icra hakimiyyətləri vətəndaşa iş təklif etməsi sıfıra bərabər olub. Böyük bir problemlə qarşılaşırıq".

Bir müddət əvvəl başqa bir millət vəkili - Əli Məsimli isə "ARB 24" telekanalının "İşgüzar səhər" verilişində bildirmişdi: "Bölgələrimizdə, rayon mərkəzlərində işsizlik baş alıb gedir. Belə bir vəziyyətdə məmurlar deyir ki, əhalinin güzəranı daha da yaxşılaşır. İşsizlərin sayı azalır". Məsimli, həmçinin, iş yerləri barədə saxta statistika verənlərin cəzalandırılmalı olduğunu bildirmişdi.

Deputat Razi Nurullayev isə mətbuata açıqlamasında demişdi ki, "Dövlət Məşğulluq Agentliyi insanları iş yerlərinə göndərir, vətəndaş gedib görür ki, iki aydır, artıq həmin iş yeri tutulub. Agentlik isə qeydə alır ki, guya filankəs işlə təmin olundu. Agentliyin verdiyi "1000 nəfər işə düzəlib" statistikasının 900 nəfəri yalandır. Onlar işlə təmin olunmayıblar, sadəcə, adlarının qarşısına işarə qoyublar ki, guya "təmin olundu"".

Bir sözlə, göründüyü kimi, deputatlar da daxil olmaqla əksəriyyət ölkədə işsizliklə bağlı rəqəmlərin doğruluğuna şübhə ilə yanaşır. Belə olan təqdirdə nazir müavini Anar Əliyevin ümumi rəqəmlər səsləndirməklə kifayətlənməyib ictimai rəydə yaranmış suallara aydınlıq gətirəcək tərzdə, iqtisadçı ekspert Natiq Cəfərlinin də qeyd etdiyi kimi, detallı açıqlama verməsi doğrudanmı çox çətindir?!

***Sənan Mirzə***

# Paşinyan COP29-a görə Bakıya gələcək? - Açıqlama



***Yerli və xarici KİV-də Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrda COP29 sammitində iştirak etmək üçün Azərbaycana gələcəyi ilə bağlı məlumatlar yayılıb.***

"Unikal" xəbər verir ki, baş nazirin mətbuat katibi Nazeli Bağdasaryanın sözlərinə görə, Paşinyanın gündəmində belə bir məsələ yoxdur.

"Baş nazirin iş gündəmində belə bir səfər nəzərdə tutulmayıb", - deyə o bildirib.

***Ağarza Elçinoğlu***

# Daşkəsəndə qazi özünü yandırdı

***Daşkəsəndə 28 yaşlı oğlan özünü yandırıb.***

"Unikal" xəbər verir ki, hadisə rayonun mərkəzində qeydə alınıb. Rayonun Çıraqlı kənd sakini 1996-cı il təvəllüdlü Ədalət İsmaylov üzərinə benzin tökərək yanırıb. Ağır yanıq xəsarətləri alan 28 yaşlı Ədalət İsmayılov Gəncə şəhərində yerləşən xəstəxanaların birinim reanimasiya şöbəsinə yerldirilib.

Yaralının vəziyyətin ağır olduğundan Bakı şəhərinə aparılır.

Qeyd edək ki, Ədalət İsmayılov 44 günlük vətən müharibəsinin qazisidir.

***Tural Əhmədov***

# "Azərişıq" paytaxtda və regionlarda enerji doldurma məntəqələri qurur



***Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında Cənab Prezident İlham Əliyevin Sərəncamına əsasən "Azərişıq" ASC bu istiqamətdə işləri davam etdirir. Bakıda keçiriləcək "COP 29" ərəfəsində paytaxtda və regionlarda enerji doldurma məntəqələrinin (EDM) zəruri infrastrukturu yaradılır, həmin məntəqələr dayanıqlı elektrik enerjisi ilə təmin edilir.***

"Unikal" xəbər verir ki, enerji doldurma məntəqələri yaşıl enerji ilə dəstəklənir. Bu da öz növbəsində ətraf mühitin qorunmasına xidmət edir. "Azərişıq" ASC tərəfindən quraşdırılan yüksək gücə malik sürətli, sabit cərəyanlı həmin məntəqələr elektromobilləri qısa vaxtda, keyfiyyətli elektrik enerjisi ilə şarj edir.

Cari ilin mart-may ayları ərzində paytaxt ərazisində "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzində, "İçərişəhər" yarımstansiyasında, Sabunçu rayonu, Nardaran qəsəbəsində yerləşən 110/35 kV-luq "Sea Breeze-1" yarımstansiyasında, Qala-Mərdəkan yolu üzərində yerləşən ticarət müəssisəsinin ərazisində quraşdırma işləri başa çatıb. Həmçinin, regionlardan Qəbələdə 110/35/10 kV-luq "Hacıallı" yarımstansiyasında, Salyanda Ələt-Astara yolunun 71-ci kilometrliyində, Qarabağ və Şərqi Zəngəzurda isə 6 ərazidə- Zəngilan və Cəbrayıl Elektrik Şəbəkələrinin Rəqəmsal İdarəetmə mərkəzlərində, "Xocalı" və "Şuşa-1" yarımstansiyalarında, "Füzuli" Rəqəmsal Yarımstansiyasında, həmçinin "Hadrut" qovşaq yarımstansiyasında məntəqələr quraşdırılıb. Proses bundan sonra da həm paytaxtda, həm də bölgələrdə davam etdiriləcək.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyi ölkəmizdə alternativ enerji mənbələrinin inkişafı sahəsində ciddi addımlar atılır. Enerji doldurma məntəqələrinin gələcəkdə yaşıl enerji zonasına çevriləcək Qarabağ və Şərqi Zəngəzurda quraşdırılması bu layihələrin davamıdır. Məntəqələrdə alternativ enerji mənbələrindən istifadə və elektromobillərə marağın günbəgün artması ölkəmizin, xüsusilə də Qarabağ və Şərqi Zəngəzurun ekosisteminə müsbət təsirini göstərəcək.



# Ağalar Vəliyev Ağsaqqallar Şuralarının hesabat konfranslarında iştirak edib

***Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Ağalar Vəliyev Ucar, Yevlax, Bərdə və Tərtər rayonlarının Ağsaqqallar Şuralarının hesabat konfranslarında iştirak edib.***

"Unikal" xəbər verir ki, konfranslardan öncə millət vəkili, rayonların rəhbərləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri Ulu Öndər Heydər Əliyevin abidələrini ziyarət ediblər və abidələrin önünə tər gül dəstələri qoyublar.

Hesabat konfranslarında çıxış edən Milli Məclisin üzvü Ağalar Vəliyev, adı çəkilən rayonların İcra hakimiyyətlərinin başçıları və digər natiqlər qeyd ediblər ki, Azərbaycana rəhbərliyinin bütün dönəmlərində Ulu Öndər ağsaqqallara böyük ehtiramla yanaşıb. Məhz onun hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi həyatında ağsaqqalların rolu artıb və cəmiyyətimizin bütün sahələrində fəallığı təmin edilib.

Ağsaqqallar Şuralarının bu günkü fəaliyyətinin, o cümlədən Ucar, Yevlax, Bərdə və Tərtər rayonları da daxil olmaqla bölgələrimizdə mütəşəkkil qaydada təşkil olunan hesabat konfranslarının Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu və möhtərəm Prezidentimiz cənab İlam Əliyevin qloballaşan dünyamızın müasir çağırışlarına uyğun layiqincə davam etdirdiyi dövlət siyasətinin sayəsində müstəqillik tariximizin ən qüdrətli dövrünə təsadüf etdiyi bildirilib.

Ağsaqqallar Şuraları olaraq bu gün qarşıda duran ən ümdə vəzifələrin dövlət başçısının ətrafında sıx birləşərək onun uğurlu daxili və xarici siyasətinin dəstəklənməsinə və təbliğinə, xalqımızın milli-mənəvi dəyərlərini, habelə müasir inkişaf meyillərini nəzərə alaraq ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və humanitar inkişafına, cəmiyyətimizin aktual məsələlərinin həllinə layiqli töhfələr verməkdən ibarət olduğu qeyd olunub.

Hesabat konfranslarının iştirakçıları Azərbaycanda ağsaqqallara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Ağalar Vəliyev Ucar, Yevlax, Bərdə və Tərtər rayonlarının Ağsaqqallar Şuralarının hesabat konfranslarında iştirak edib

Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Ağalar Vəliyev Ucar, Yevlax, Bərdə və Tərtər rayonlarının Ağsaqqallar Şuralarının hesabat konfranslarında iştirak edib. Konfranslardan öncə millət vəkili, rayonların rəhbərləri, ağsaqqallar və ictimaiyyətin nümayəndələri Ulu Öndər Heydər Əliyevin abidələrini ziyarət ediblər və abidələrin önünə tər gül dəstələri qoyublar.

Hesabat konfranslarında çıxış edən Milli Məclisin üzvü Ağalar Vəliyev, adı çəkilən rayonların İcra hakimiyyətlərinin başçıları və digər natiqlər qeyd ediblər ki, Azərbaycana rəhbərliyinin bütün dönəmlərində Ulu Öndər ağsaqqallara böyük ehtiramla yanaşıb. Məhz onun hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi həyatında ağsaqqalların rolu artıb və cəmiyyətimizin bütün sahələrində fəallığı təmin edilib.

Toplantılarda Müzzəfər Ali Baş Komandanımızın rəhbərliyi ilə əldə etdiyimiz Şanlı Zəfərimizdən sonra Cənubi Qafqaz reqionunda yeni reallıqlarlar yaradan Azərbaycanın "Böyük Qayıdış" proqramını uğurla reallaşdıraraq daha böyük hədəflərə doğru inamla irəlilədiyi xüsusi olaraq vurğulanıb.

Ağsaqqallar Şuraları olaraq bu gün qarşıda duran ən ümdə vəzifələrin dövlət başçısının ətrafında sıx birləşərək onun uğurlu daxili və xarici siyasətinin dəstəklənməsinə və təbliğinə, xalqımızın milli-mənəvi dəyərlərini, habelə müasir inkişaf meyillərini nəzərə alaraq ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və humanitar inkişafına, cəmiyyətimizin aktual məsələlərinin həllinə layiqli töhfələr verməkdən ibarət olduğu qeyd olunub.

Hesabat konfranslarının iştirakçıları Azərbaycanda ağsaqqallara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# Mərhum nazirin oğluna böyük şok

## Çingiz Mehdiyevin məhkəmədəki etirafı Arif Rəhimova nə vəd edir? - 400 min manatlıq yeyintinin gizlinləri açılır

***"Formula 1"ə ayrılan pulları mənimsəməkdə ittiham olunan Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin şöbə rəisi Çingiz Mehdiyevin məhkəmə araşdırması davam edir. İyunun 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən iclasda Mehdiyev əvvəl prokurorun suallarını cavablamaqdan imtina edib.***

Təqsirləndirilən şəxs etirazını zərərçəkmiş tərəfin prosesdə iştirak etməməsi, dəymiş ziyanın nədən ibarət olduğunu bilməməsi ilə əlaqələndirib (Qafqazinfo): "Heç bir dövlət qurulu Seyşel adalarında qurulan şirkətin kimə məxsus olduğunu və faktiki olaraq kim tərəfindən idarə edildiyini soruşub.

Çingiz Mehdiyev deyib ki, "Dayton" şirkətini faktiki olaraq anası idarə edib, amma onun da adına etibarnəmə olub: "Dayton" alış-satış və digər fəaliyyətlərlə məşğul idi. "Formula 1" başlamazdan əvvəl mənə tapşırıq verildi ki, avadanlıqların alınması üçün etibarlı şirkət tapım. Mən də qohumlarıma müraciət etdim. Bu işləri ölkədə ancaq mən bilirdim. "Dayton" da bizim maraqlarımıza uyğun idi. Həmin şirkət bizə heç bir



mu mənim fəaliyyətimdən narazı qalmayıb. Həmçinin mən özümü təqsirli bilmirəm. Məni işə salıblar. Zərərçəkmiş gəlsin ifadə versin, desin görək, onlara nə ziyan dəyib".

Prokuror Orxan Səmədov təqsirləndirilən şəxsin etirazının əsassız olduğunu deyib. Prokuror izah edib ki, bu işdə zərərçəkmiş yox, zərərçəkmiş qurumun nümayəndəsi var, qanun da onu dindirməyə icazə vermir.

Təqsirləndirilən şəxs və vəkilləri prokurorun izahına baxmayaraq, etiraza davam ediblər. Müdafiə və ittiham tərəfi arasındakı sözlü mübahisəyə məhkəmə tərkibinə daxil olan hakim Novruz Kərimov nöqtə qoyub.

Hakim qarşısındakı Cinayət-Prosessual Məcəlləsindən məhkəmə istintaqının aparılması ilə bağlı qaydanı oxuyub, müdafiə tərəfini prosesin gedişinə manеə yaratmamağa çağırıb: "Qanun deyir ki, belədir. Harada görülüb ki, qanunu dəyişək?! Biz sizə hörmətlə yanaşırıq, siz də məhkəməyə elə yanaşın".Bundan sonra müdafiə tərəfi etirazı dayandırıb, prokuror sual-cavaba başlayıb.Prokuror təqsirləndirilən şəxsdən şirkətin etməyəcəyi güzəşti etdi. İki ay ödəniş etmədik, amma yenə də əməkdaşlığı davam etdirdi". Sədrlik edən hakim Leyla Əsgərova-Məmmədova Çingiz Mehdiyevdən tapşırıqları kimdən aldığını soruşub. Mehdiyev sualdan yayınmaq istəsə də, hakimin təkidindən sonra mərhum gənclər və idman naziri Azad Rəhimovun oğlu Arif Rəhimovun adını çəkib. Çingiz Mehdiyev bütün tapşırıqları Arif Rəhimovdan aldığını etiraf edib.

Təqsirləndirilən şəxsin prokurorun suallarına yarı rus, yarı Azərbaycan dilində, həmçinin dolaşıq cavablar verməsi prokuroru yenidən özündən çıxarıb: "Baxıram ki, siz rus dilindən Azərbaycan dilinə tərcümələr etmisiniz. Amma burada deyirsiniz ki, Ana dilində danışa bilmirəm. Bundan əlavə, mən başqa şey soruşuram, siz başqa şey deyirsiniz. Belə olmaz".

Prokurorun müvəkkilinə münasibətdə dediklərinə müttəhimin vəkili "kiməsə dərs keçməyə ehtiyac yoxdur", - deyərək etiraz edib. "Görünür ki, ehtiyac var", - deyə prokuror cavab verib.

Sədrlik edən hakimin müdaxiləsindən sonra zalda səssizlik yaranıb. Hakim özü də təqsirləndirilən şəxsdən suallara mahiyyəti üzrə cavab verməsini tələb edib. Bundan sonra proses iyunun 10-na kimi təxirə salınıb.

Qeyd edək ki, Çingiz Mehdiyev "Formula 1" oyunlarının təşkili vaxtı vəzifə saxtakarlığı edərək 400 min manata yaxın dövlət vəsaitini mənimsəməkdə ittiham edilir. Mehdiyev həbsdə deyil. O, ibtidai və məhkəmə istintaqı dövrü müddətində polisin nəzarətinə verilib.

"Unikal" xatırladır ki, Arif Rəhimov vaxtilə Bakı Şəhər Əməliyyat Halqasının rəhbəri olub. O, 7 il bu vəzifəni yerinə yetirib. 2006-2011-ci illərdə gənclər və idman naziri postunu tutmuş, 2021-ci ildə vəfat etmiş Azad Rəhimovun oğlu olan Arif Rəhimov 2022-ci ildə bu vəzifədən azad edilib və həmin vaxt bildirilib ki, bundan sonra fəaliyyətini özəl sektorda davam etdirəcək. Yeri gəlmişkən bildirək ki, o, mərhum nazirin yeganə övladıdır. Orta məktəbi Bakıda bitirən, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində oxuyan Arif Rəhimov ardından ali təhsilini İngiltərənin paytaxtında davam etdirib. Azərbaycan, rus və ingilis dillərini bilən Arif Rəhimov 2011-2012-ci illərdə Londondakı Cass Business School-da neft və energetika sənayesi ixtisasına yiyələnib.

2009-cu ilin oktyabrından 2011-ci ilin noyabrınadək Azərbaycan Dövlət Neft Şirkətində maliyyə meneceri vəzifəsində işləmiş Arif Rəhimov sonradan DDLAR GROUP adlı özəl şirkətini qurub və ona rəhbərlik edir.

Bəzi KİV-lərin iddiasına görə, mərhum nazirin oğlu, əsasən, Londonda yaşayır.

Başqa bir iddiaya görə isə Çingiz Mehdiyevin cinayət məsuliyyətinə cəlb edildiyi 400 min manatlıq yeyinti faktından Arif Rəhimovun xəbərsiz olması təəccüblüdür. Hər halda söhbət kifayət qədər böyük məbləğdə - yarım milyon manata yaxın bir mənimsəmədən gedir.

O da istisna edilmir ki, mərhum nazirin oğlu bu yeyinti ilə bağlı şübhələrin ortaya çıxmasının ardından Bakı Şəhər Halqasının icraçı direktoru vəzifəsini itirib.

Çingiz Mehdiyevin məhkəmə araşdırması zamanı bütün tapşırıqları Arif Rəhimovdan aldığını söyləməsi ciddi etiraf kimi qiymətləndirilə bilər. Bu etirafın mərhum nazirin oğluna hansısa başağrısı yaradıb-yaratmayacağı isə yəqin ki, qarşıdakı günlərdə aydın olacaq.

***Toğrul Əliyev***

18_27 IYUl-QARA.qxd 6/6/2024 8:22 PM Page 10



# Şair Alxasov cinayət məsuliyyətinə cəlb edilə bilər

## Sabiq icra başçısının başı üzərində "qara buludlar" dolaşır - Yaxın qohumunun həbsi onun özünü də çətin vəziyyətdə qoyub

***Bu günlərdə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Balaşərif oğlu Alxasov vəzifəsindən azad edildi.***

Ölkənin önəmli rayonlarından birinə rəhbərlik etməsinə baxmayaraq Alxasovun adının geniş ictimaiyyətə o qədər də tanış olmadığını söyləməliyik. Hətta vəzifəsindən azad edilərkən bir çoxları sabiq başçının "təvazökarlığından" təəccüblənmişdilər: necə olub ki, digər rayon rəhbərlərindən fərqli olaraq onun haqqında indiyədək mediada rüşvət, korrupsiya iddialarına nadir hallarda rast gəlinib?

Lakin günlər keçdikcə aydınlaşdı ki, Şair müəllim heç də düşünüldüyü qədər "fağır icra başçısı" olmayıb, daha dəqiq desək, az qala "gizli oliqarx" imiş. Məsələn, "Unikal.az"ın işdən çıxarılan Alxasovun əmlakları ilə bağlı



əldə etdiyi siyahı kifayət qədər diqqətçəkici idi:

- Qusarda evi ilə qarşı-qarşıya yerləşən hotel;
- Qusar şəhəri ərazisində tikdirdiyi 5 mərtəbəli binalar;
- 6 nömrəli məktəbin yanında hotel;
- Nəriman Nərimanov parkında restoran;
- Bayraq meydanının yaxınlığında 2 hotel;
- Meşə fonduna aid olan 27 hektarlıq torpaq sahəsi;

Lakin Alxasovla bağlı iddialar bununla da yekunlaşmır. Yerli KİV yazır ki, 2020-ci il oktyabrın 19-da Qusar Rayon İcra Hakimiyyəti Qusar şəhəri, Heydər Əliyev prospekti 108 ünvanında yerləşən ticarət obyektinin istismarına icazə verib. Ümumi sahəsi 362,6 kv. metr olan obyektin sahibi Alxasov İlkin Şair oğludur. Tikintisinə 2018-ci ildə başlanılan obyektin sahibi isə eyni zamanda tikintinin istismarına icazə verən quruma rəhbərlik edən şəxsin - Qusar Rayon İcra Hakimiyyəti başçısı Şair Alxasovun oğludur. Ərazidə həmçinin icra başçısının oğluna aid olduğu bildirilən "İlk İNN" Hotel fəaliyyət göstərir.

Tikinti obyektinin layihəçisinə gəlincə, bu, "Urfan" MMC (VÖEN 4700011561) adlı şirkətdir. Şirkətin qanuni təmsilçisi isə Urfan Şahabbas oğlu Saruxanovdur. Eyni adlı şəxs həm də "Şahdağ-Samur" MMC (VÖEN 4700061861) adlı şirkətin də qanuni təmsilçisidir və eyni ünvanda qeydiyyatdan keçib. Şirkət 2019-cu ildə Qusar Rayon İcra Hakimiyyətinin keçirdiyi tenderin də qalibi olub. 472,165 min manat vəsait udan şirkət "Abadlaşdırma işlərinin satınalınması" tenderinin qalibi elan edilib. Şirkət Qusarda ən çox tender udanlar siyahısında birincidir. Həmin şirkətin KİV-də icra başçısının proksi şirkətlərindən biri olduğu iddia olunur.

Bundan əlavə, icra başçısının qardaşı Nazim Balaşərif oğlu Alxasovun da inşaat şirkəti sahibi olduğu müəyyən olunub. Belə ki, Kommersiya qurumlarının dövlət reyestri məlumatlarına görə 26 may 2016 tarixindən etibarən eyni adlı şəxs "SUVAL İNŞAAT" MMC (VÖEN: 1503207821) şirkətinin qanuni təsisçisi və təmsilçisidir.

İcra başçısının həyat yoldaşı Xanımgül Muradağa qızı Alxasovanın da şirkət təmsilçisi olduğu üzə çıxıb. Belə ki, 12 avqust 2009-cu ildə dövlət qeydiyyatına alınan, 20 manatlıq nizamnamə kapitalı olan "ƏKİNÇİ-2009" MMC (VÖEN: 4700302341) şirkətinin qanuni təmsilçisi və təsisçisi Xanımgül Muradağa qızı Alxasovadır.

Bundan başqa, Ş.Alxasovun meşə fonduna aid olan 27 hektarlıq torpaq sahəsini 1 sotu 5 min manatdan satdığına dair də xəbərlər yayılıb. Sabiq icra başçısı mətbuatda gedən yazılarda Qusardakı meşə zolağında 4 mindən çox ağacın kəsilərək yerində istirahət mərkəzinin salınmasında günahlandırılıb. Bir çoxlarının fikrincə, payızda Bakıda keçiriləcək dünyanın ən mühüm ekoloji tədbirlərindən biri - "COP29" çərçivəsində hazırlıqlar getdiyi bir vaxtda Alxasov və ətrafının yaşıllıqları biznesə qurban verməsi cəzasız qala bilməzdi.

Şair müəllim vəzifəsini itirməmişdən bir neçə gün öncə isə onun yaxın adamı, bələdiyyə sədri Əlfəddin İbrahimov Qusarda torpaq sahələrini rüşvət qarşılığında qanunsuz satdığına görə cinayət məsuliyyətinə cəlb edilib. Alxasovun kadrı Qusar rayonunda ekoloji hüquqpozmaların törədilməsi və digər qanun pozuntuları üzrə fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Baş Prokurorluqda başlanmış cinayət işi çərçivəsində saxlanılıb. İbtidai istintaq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, istintaqla Qusar bələdiyyəsinin sədri İbrahimov Əlfəddin Qeysəddin oğlunun vəzifə səlahiyyətlərini aşmaqla torpaq sahələrini qanunsuz olaraq satmasına, bilə-bilə qanunsuz hərəkətlərə görə külli miqdarda rüşvət almasına və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Əlfəddin İbrahimov Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 311.3.3 (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Yaxın adamının həbsinin ardınca özünün də vəzifəsindən azad edilməsi Şair Alxasovun da bələdiyyə sədrinin cinayət işi üzrə istintaqa cəlb edilə biləcəyinə dair ehtimalları gündəmə gətirib. Həmin ehtimalların özünü doğrultub-doğrultmayacağını isə zaman göstərəcək.

Başqa bir iddiaya görə isə Şair müəllimin vəzifəsindən uzaqlaşdırılmasının ardınca Qusar Rayon icra Hakimiyyətində genişmiqyaslı yoxlamalara başlanılması istisna olunmur. Bu da səbəbsiz deyil. Belə ki, xüsusilə rayonda keçirilən tenderlərin obyektivliyi və şəffaflığı, eləcə də büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməməsi ilə bağlı da ciddi şübhələr var.

Bir sözlə, sabiq icra başçısını qarşıda kifayət qədər çətin günlərin gözlədiyini söyləmək mümkündür.

Xatırladaq ki, Ş.Alxasov Azərbaycanın ən uzun müddətli icra başçılarından sayılırdı. O, 2007-ci ildən Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışırdı.

1958-ci ildə Qusar rayonunun Çətgün kəndində anadan olan Alxasov 1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu inşaat mühəndisi ixtisası üzrə bitirmiş, əmək fəaliyyəti dövründə "Azərelektroterm" İstehsalat Birliyində tikinti işləri üzrə müdir müavini, tikinti trestinin müdiri, "Bərpaçı-A" MMC-nin prezidenti, bir sıra tikinti şirkətlərinin rəhbəri vəzifələrində işləmişdi.

***Toğrul Əliyev***



# Ünvanlı sosial yardım alanların sayı azala bilər

***Ünvanlı sosial yardım proqramına müraciət prosedurunun daha da təkmilləşdirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Ünvanlı yardım" elektron sistemini yenidən qurub.***

Artıq ünvanlı yardım üçün müraciət edən şəxslərdən bir sıra məlumatlar tələb olunmayacaq.

Bunu necə qiymətləndirmək olar? Ünvanlı sosial yardım alanların sayı artacaq, yoxsa azalacaq?

Məsələ ilə bağlı Modern.az-a danışan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Aqil Məmmədov bildirib ki, elektron sistemin formalaşması çoxdan gündəmdə idi: "Vətəndaşlar əvvəl əyani şəkildə müraciət edirdisə, indi elektron formada müraciətdən sonra sənədlərlə bağlı tələblər minimum həddə enəcək. Elektron formada bütün əlaqədar qurumların ortalığa girmək imkanı var. Bu istiqamətdə bütün işlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öhdəsinə düşür. Ailə tərkibində nəfər sayına görə dəyişikliklər, yaxud yeni iş yerləri əgər təmin olunarsa, məlumatların bazada oturması və bu kimi digər hallar elektronlaşdırılmış sistemə daxil olduğuna görə, vətəndaşdan demək olar ki, əlavə sənəd tələb olunmayacaq. Bu da insanların rahatlığına gətirib çıxarır. Vətəndaş heç bir qapıya getmədən, sənəd toplamadan aidiyyəti qurum o işləri öz üzərinə götürüb. Bu da vaxt itkisinin qarşısının alınması deməkdir".

Deputatın fikrincə, dürüstləşmə getdikcə, prosedurlar ehtiyacı olan ailələrin ünvanlı sosial yardım almasına xidmət göstərəcək: "Qanunvericiliyimizdə nəzərdə tutulmuş şərtlərə uyğun olan ailələr dürüstləşdikcə, yardımdan faydalananların sayına da aydınlıq gələcək. Bu gün insanların işlə təmin olunması istiqamətində çox mühüm addımlar atılır. Özünəməşğulluq proqramlarına cəlb olunma istiqamətində işlər görülür. Eyni zamanda peşə hazırlığı sahəsində rəqabət mühiti yaradılıb ki, daha çox insan aktiv işlə təmin olunsun. Məsələyə belə baxdıqda ünvanlı sosial yardım alanların sayının artması yox, azalması baş verə bilər. Əsas məsələ şəffaflığın təmin olunması və həqiqətən ünvanlı sosial yardıma ehtiyacı olan ailələrin müəyyənləşdirilməsidir".

İqtisadçı ekspert Natiq Cəfərli deyib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin atdığı addım başadüşüləndir: "Ünvanlı sosial yardımla bağlı müxtəlif problemlər, iradlar, narazılıqlar var idi. İndi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu işin elektronlaşması və insan amilinin təsiri olmadan həyata keçirilməsinə çalışır. Bu addım da analaşılan və doğrudur. Lakin yenə də son qərarı hansısa məmur verəcəksə, prosedurun elektronlaşması elə də effekt verməyəcək".

N.Cəfərli söyləyib ki, ictimai nəzarət mexanizmi gücləndirilməlidir: "İstənilən halda sosial məsələ çox həssas olduğuna görə jurnalistlərdən, QHT-lərdən ibarət ictimai nəzarət şurası yaradılmalıdır. Beləliklə də, bu istiqamətdəki şikayətlərə operativ reaksiya vermək mümkün olacaq. Çünki şikayətlər həddən artıq çoxdur. Bəzən haqlı, bəzən də haqsız şikayətlər olur. İstənilən halda şikayətlərin çoxluğu bu istiqamətdə narazılığa gətirib çıxarır. Şikayətlərin aradan qaldırılması üçün ictimai nəzarət mexanizmi genişləndirilməlidir. Daha şəffaf nəzarət mexanizminin yaradılmasına ehtiyac var".

18_27 IYUI-QARA.qxd 6/6/2024 11:56 PM Page 11



# "Pulu 50/50-yə aramızda bölək" - Elşad Hacıyevi aldatmaq istədilər



***Kiberdələduzlar Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin rəhbəri, polis polkovnik-leytenantı Elşad Hacıyevi də aldatmaq istəyiblər.***

"Unikal" xəbər verir ki, bu barədə Elşad Hacıyev özü məlumat verib. Onun sözlərinə görə, kiberdələduz israrla ondan guya ölən qohumundan miras qaldığını iddia edərək şəxsi məlumatlarını ələ keçirmək istəyib.

DİN rəsmisi kiberdələduzla yazışmasını ictimailəşdirib. Həmin yazışmanı təqdim edirik: "Salam Elşad Hacıyev. Mən sizə tərcüməçi dili ilə yazıram. Adrian Hacıyev adlı şəxsi axtarıram. Beləliklə, mən sizin profilinizi "Facebook"da görəndə bir-birimizə ən yaxşı şəkildə necə kömək edə biləcəyimizi anlaya bilmək üçün sizi əlavə etmək və bu yazını yazmaq qərarına gəldim. Adım Azara Yucil xanım, ISBANKASI-da Türkiyənin İstanbul şəhərində bank meneceri işləyirəm. Düşünürəm ki, indi görüşməyim Allahın istəyi idi. Sizinlə bölüşmək istədiyim vacib bir iş söhbətim var. Əminəm ki, adınıza/millətinizə aid olduğu üçün maraqlı tapacaqsınız və sizin üçün faydalı olacaq.

İndi, İstanbulda burada qızıl alveri ilə məşğul olan ölkənizin vətəndaşı, məşhur cənab Adrian Hacıyevin mənim bankımda 2007-ci ildə 9 500 000,00 (doqquz milyon beş yüz min) ABŞ dolları məbləğində 108 aylıq müddətli əmanəti var idi. Bu əmanətin müddəti sonuncu dəfə başa çatıb. Adrian Hacıyev aprelin 30-da Türkiyənin Ankara vilayətində Covid-19 pandemiyası nəticəsində dünyasını dəyişənlər arasında olub.

Onun ölümündən hələ bank müdirlərimin xəbəri yoxdur, onun mühasibi olduğum üçün bilirlər. Hesabı açarkən qohumlarını/varislərini göstərməyib, nikahda olmayıb, qohum tapılmayıb. Keçən həftə bank rəhbərliyim qeyri-aktiv və tərk edilmiş depozit hesablarını nəzərdən keçirmək üçün iclas keçirdi. Bunun olacağını bilirdim, ona görə də bu vəziyyəti həll etmək üçün bir yol axtarırdım, çünki bank müdirim onun ölümünü bilsəydi, bank pulu onun müdirinə göndərərdi. Buna görə də bunun baş verməsini istəmirəm. Beləliklə, təfərrüatı görəndə sevindim.

İndi siz onunla eyni soyad və milliyyətə sahib olduğunuz üçün özünüzü hesabda növbəti ailə üzvü/varisi kimi təqdim etmək üçün yardımınızı xahiş edirəm. Bank filialım mənim köməyimlə hesabınızın kilidini açacaq. Heç bir risk yoxdur; Əməliyyatlar sizi istənilən qanun pozuntusundan qoruyan hüquqi müqavilələr əsasında aparılır. Bankirlərin onu sovuraraq öz aralarında bölüşdürmələrinə icazə verməkdənsə, pul istəmək daha yaxşıdır. Mən acgöz adam deyiləm, ona görə də təklif edirəm ki, pulu 50/50-yə sizinlə mənim aramızda bölək. Nə düşündüyünüzü mənə bildirin və bu məlumatı məxfi saxlayın. Aşağıdakı şəxsi e-poçt ünvanıma təcili cavab alan kimi ətraflı məlumat verəcəyəm.

**E-poçt: ***********478@gmail.com <mailto:***********478@gmail.com>**

Zəhmət olmasa, mənim e-poçt ünvanım vasitəsilə mənimlə əlaqə saxlayın ki, mən və bu əməliyyat haqqında bilməli olduğunuz bütün təfərrüatı sizə göndərim

Əziz dostum, sənin milliyyətin azərbaycanlıdır. Ümid edirəm ki, siz mənim təklifimin məzmununu oxuyub başa düşmüsünüz. Sizi mərhum Adrian Hacıyevin yaxın qohumu/varisi kimi tanıtmaq üçün sadəcə köməyinizə ehtiyacım var, çünki onun ölümündən sonra heç bir qohum tapa bilməmişəm və heç kim iddia irəli sürməyib. Zəhmət olmasa, mənim e-poçt ünvanım vasitəsilə mənimlə əlaqə saxlayın ki, mən və bu əməliyyat haqqında bilməli olduğunuz bütün təfərrüatı sizə göndərim.

Cavab verirəm ki, elə qohumum yoxdur və davam edir: "Bilməlisən ki, yaxın qohum olana qədər insanla münasibət qurmaq heç də həmişə məcburi deyil. Ölümündən bu illərdən bəri ailə üzvlərini tapa bilmədiyim üçün sizin köməyinizə ehtiyacım var. iddia üçün. Mənə lazım olan tək şey sizin əməkdaşlığınızdır və bankın sizdən ehtiyac duyacağı bütün detalları sizə təqdim edəcəyəm, əməliyyat qanuni şəkildə aparılacağı üçün təşvişə düşməyinizə ehtiyac yoxdur. İndi etdiyim şey başqasının edəcəyi şeydir və əgər uğursuz olsam, bankım/hökumətim miras üzərində əbədi oturmaq fürsətindən istifadə edəcək. Mən bu böyük fürsəti əldən buraxa bilmərəm. Nə demək istədiyimi bilməlisən. Başa düşürəm ki, bu adda başqaları da var, amma intuisiyam sizin hesabınıza pul daxil olduqdan sonra müddəti bitməyən yaxşı bir insan olduğunuza inanmağı seçdi. Mən sizi tam başa düşürəm, lakin diqqətinizi tolerantlığınıza çatdırmaq istəyirəm ki, bu qutunu heç bir şey etmədən əlinizə həvalə edərək, sizə ən böyük etimad göstərən şəxs olduğumu nəzərə alaraq, sizi bu əməliyyatda iştirak etməyə məcbur etmirəm. onu hesabınıza köçürdükdən dərhal sonra qutudan qaçmağa qərar verə biləcəyinizi bilirsiniz ki, bir insan olaraq biz bunun əksinə inanırıq və mən də sizi əmin etmək üçün vasitələrdən istifadə etmək istəyirəm ki, bu əməliyyat hüquqi prosedurlara uyğun həyata keçiriləcək. Qanunu pozmadan. Və cavab gözləyir..."

# Daha üç ən "uzunömürlü" icra başçısı "topun ağzında"

## Vidadi İsayev, Mərdan Camalov və Mənsur Məmmədov da vəzifələrindən uzaqlaşdırıla bilər

***Son zamanlar Azərbaycanda uzun müddətdir icra başçısı postunu tutan rayon rəhbərlərinin vəzifələrindən kənarlaşdırıldığı müşahidə olunmağa başlayıb. Belə ki, bir müddət öncə Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev həmin vəzifədən azad edildi.***

O vaxt media və ekspertlər bildirirdi ki, hələ də cəmiyyətin vəzifədən çıxarılacağını gözlədiyi icra başçıları var və Ziyəddin Əliyevlə bağlı ölkə rəhbərinin sərəncamı prosesin başlanğıcı kimi görülür. Bu yöndə gedən müzakirələrdə fəaliyyəti daha çox narazılıq yaradan, yaxud da uzun müddətdir vəzifədə olan icra başçılarının adı çəkilirdi.



Digər tərəfdən vurğulanırdı ki, yerli icra hakimiyyətləri idarəetmə sisteminin ən çox tənqid edilən həlqəsidir. Elə bu səbəbdəndir ki, onların ləğvi barədə təkliflər səsləndirilir. Hətta hakimiyyət daxilində bu istiqamətdə müzakirələrin yekunlaşmaq üzrə olduğu və yaxın vaxtlarda son qərarın veriləcəyi barədə iddialar var.

Ehtimallar özünü doğrultdu. Bu günlərdə daha iki"uzunömürlü" icra başçısı - Qusar rayonuna 17 ildir rəhbərlik edən Şair Alxasov və Beyləqan rayonunun icra başçısı Asif Ağayev həmin postdan kənarlaşdırıldı (bu barədə qəzetimizin bugünkü sayında dərc olunan başqa bir yazıda ətraflı bəhs edildiyi üçün təfərrüata ehtiyac görmürük). Beləcə bütün diqqətlər qarşıdakı mərhələdə vəzifələri ilə vidalaşacaqları təxmin edilən digər "uzunömürlü" icra başçılarına yönəlib. Həmin sırada adı ön plana çıxanlardan biri sabiq nəqliyyat naziri Ziya Məmmədovun yaxın qohumu olan Mənsur Məmmədovdur.

2015-ci ildən Ucar Rayon İcra Hakimiyyətinin başçısı postunu tutan M.Məmmədov hazırda 59 yaşındadır. Onun icra başçılığı karyerası da məhz Ziya Məmmədovun himayəsi altında başlayıb. Mənsur Məmmədov 2005-2007-ci illərdə Zərdabın, 2007-2015-ci illərdə Göyçayın icra başçısı vəzifəsində çalışıb. Bir sözlə, üç fərqli rayonda ümumilikdə 19 illik icra başçısı stajı olan Ucarın hazırkı rəhbəri zaman-zaman mətbuatda ən çox tənqid edilən vəzifə sahiblərindəndir. Onun haqqında zaman-zaman yerli sakinlərin şikayətləri də mətbuatda özünə yer tapır. Məsələn, 2022-ci ildə Ucar rayonunun Alpout kənd sakinləri - İsmayılov Kamran Etibar oğlu, Cəlilov Samir Əmir oğlu, Əliyev Fərhad Mövsüm oğlu, Məmmədov Behruz Mahir oğlu, Abbasov Mirzə Səhrab oğlu və Əliyev Kamil Nüsrət oğlu tərəfindən yerli KİV-ə göndərilən şikayət məktubunda bildirilirdi: "İcra Hakimiyyəti başçısı Mənsur Məmmədov ümumi istifadədə olan örüş yerini qanunsuz olaraq əkdirməklə kənd sakinlərinə ciddi ziyan vurmuşdur. Belə ki, biz Ucar rayonu Alpout kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Ancaq ümumi istifadədə olang "Bəy yeri" deyilən ərazidə 24 hektar örüş yerində icra başçısı qanunsuz olaraq əkin işləri aparmışdır. Hansı ki, həmin 24 hektar torpaq sahəsinin təyinatı örüşdür". Şikayət məktubunda M.Məmmədovun qanunsuz şəkildə böyük varidata sahib olduğu, buna baxmayaraq yenə də sadə kəndlilərin çörəyinə göz dikdiyi bildirilirdi. Başqa bir iddiaya görə isə örüş torpaqlarını təyinatdan kənar istifadə etmək Mənsur müəllim üçün adi haldır. Məsələn, o, hələ Göyçayda icra başçısı vəzifəsində işləyən zaman həmin rayonun Çərəkə kəndində 60 hektar örüş torpağında qanunsuz şəkildə balıq yetişdirmə gölü yaradıbmışg

Ümumiyyətlə, Ucarda M.Məmmədovun fəaliyyətindən ciddi narazılıqların olduğunu internet üzərindən kiçik bir axtarış, yaxud media monitorinqi aparmaqla aydın görmək olar.

Qarşıdakı aylarda vəzifəsindən uzaqlaşdırılması barədə sərəncam veriləcəyi təqdirdə buna kimsə təəccüblənməyəcək. Daha "uzunömürlü" icra başçılarından biri isə Vidadi İsayevdir. O, icra başçılığı karyerasına Tərtərdə başlayıb. 2005-2011-ci illərdə bu rayonun icra başçısı olan İsayev 2011-ci ildən Bərdəyə rəhbərlik edir. Vidadi müəllim haqqında ən çox şikayət edilən rayon rəhbərlərindən biridir. Adı ətrafında daim müxtəlif qalmaqalların yaşandığı Vidadi müəllimlə bağlı korrupsiya iddiaları isə az qala adi hala çevrilib. Məhz bu səbəbdən də 2019-cu ildən etibarən Azərbaycanda bir sıra rayon rəhbərlərinin həbsi ilə müşayiət olunan proses start götürəndə V.İsayevin də qandallanan icra başçılarının sırasına qoşula biləcəyini təxmin edənlərin də, buna inananların da sayı xeyli çox idi. Həmçinin 2020-ci ildə icra başçısının vəzifəsindən azad edildiyi barədə məlumat yayılmış, lakin həmin xəbər sonradan təsdiqlənməmişdi. Ümumilikdə 19 illik icra başçılığı karyerasına malik olan, fəaliyyəti yerli əhali tərəfindən birmənalı qiymətləndirilməyən, şəxsi biznesi ilə bağlı saysız-hesabsız iddialar dolaşan İsayev yaxın vaxtlarda postundan kənarlaşdırılarsa, bu, heç kim tərəfindən sürpriz qarşılanmayacaq.

2006-2018-ci illərdə Azərbaycanın müdafiə sənayesi naziri postunu tutmuş mərhum Yavər Camalovun qardaşı olan Mərdan Camalov da artıq 19 ildir icra başçılığı karyerasına sahibdir. O, 2005-2019-cu illərdə Şirvanın icra başçısı işləyib. 2019-cu ildən isə Zərdabın icra başçısıdır.

M.Camalov da barəsində mütəmadi tənqidlərlə, şikayətlərlə qarşılaşdığımız rayon rəhbərlərindəndir. Onun ölkə daxilində və xaricində iri biznesinin varlığına dair iddialar var. Mərdan müəllimin bu biznesi hansı qaynaqlar hesabına qurduğunu isə yalnız icra başçısı işlədiyi rayonlarda deyil, geniş ictimaiyyət arasında da tez-tez sual edirlər.

Yazıda adları çəkilən 3 ən "uzunömrlü" icra başçısının tezliklə vəzifələrindən kənarlaşdırılacağı ilə bağlı ehtimalların özünü doğruldub-doğrultmayacağını zaman göstərəcək. Odur ki gözləyək...

***Toğrul Əliyev***

## 5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Müəllim üçün Vətən sinif otağından başlayır

## Gənclərin vətənpərvər yetişməsində qazi müəllimlərin böyük rolu var...



***Təhsil müəssisələrinin üzərinə düşən vəzifə təkcə bilik, savad vermək deyil, məktəblərdə təlim-tərbiyə işinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir. Bu gün Azərbaycan dövlətinin gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsidir. Qazilərin məktəblərdə işlə təmin olunması Elm və Təhsil Nazirliyinin bu istiqamətdə həyata keçirdiyi siyasətin tərkib hissəsidir.***

Hazırda ümumtəhsil müəssisələrinin bir çoxunda gənclərin çağırışaqədərki hazırlığı fənni qazi müəllimlər tərəfindən tədris olunur. Onlardan biri də Mais Kazımovdur. Mais Kazımov 44 günlük müharibədən sonra müəllim kimi fəaliyyətə başlayan qazilərimizdəndir. Şərqi Zəngəzur Regional təhsil müəssisələrindən birində, Qubadlı rayonu Teymur Müskanlı kənd tam orta məktəbində gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən M. Kazımov prezident tərəfindən Vətən müharibəsində şücaətinə görə üç medal alıb. Müharibəyə qədər ehtiyatda olan zabit M. Kazımov Vətən darda olan kimi döyüşə atılıb. Cəbrayıl, Qubadlının işğaldan azad olunmasında iştirak edən M. Kazımov müharibədən sonra da Vətənə yararlı işdə çalışmaq üçün müəllimlik peşəsində çalışmağa başlayıb.

Həmsöhbətimiz bildirib ki, müəllim işini də sevə-sevə görür: "Hansı peşədə çalışmağımızdan asılı olmayaraq hər bir vətəndaşın amalı Vətənə xidmət olmalıdır. Çalışıram ki, işlədiyim məktəbdə təhsil alan gənclər vətənpərvər ruhda böyüsün. Onlarla bu barədə söhbət aparıram. Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan döyüş yoldaşlarımın keçdiyi şərəfli yoldan danışıram. Hiss edirəm ki, bu cür söhbətlər gənclərdə vətənpərvərlik hissi oyadır. Onlar torpaqlarımızın necə işğaldan azad edildiyini bilməlidirlər ki, o torpaqları qorumağın müqəddəs amal olduğunu dərk etsinlər".

M. Kazımov müharibənin onun səhhətində iz buraxdığını, hazırda onun üçün özəl gün olsa da, xəstəxanada müalicə olunduğunu söyləyib.

M. Kazımov sonda ümumtəhsil müəssisələrində gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisinin qazilərə həvalə olunmasına görə Elm və Təhsil Naziri Emin Əmrullayevə minnətdarlığını ifadə etdi.

Digər həmsöhbətimiz isə qazi Sənan Həsənovdur. O artıq bir ildir ki, məktəbdə müəllim işləməsə də, təhsil müəssisələrinin gənclərin vətənpərvərlik hissinin yüksəldilməsində böyük rolunun olduğunu söyləyir. Həmsöhbətimiz deyir ki, hazırda Qubadlı icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsində baş məsləhətçi işləyir. Burada da işinin müharibə iştirakçıları və şəhid ailələri ilə bağlı olduğunu söyləyən Sənan Həsənov bu istiqamətdə görülməli işlərin çox olduğunu bildirir.

4 il 8 ay 7 gün hərbi xidmətdə olan Sənan Həsənov Vətən müharibəsinin ilk günündən komandir müavini kimi döyüşə atılıb. Cəbrayıl və Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 2-də ayaqlarından və başından 9 güllə yarası alan S. Həsənov ağır vəziyyətdə hospitala yerləşdirilib. S. Həsənov hərbiyə yararsız olsa da, bu sahədə biliklərini gələcək nəslə öyrətməkdə davam edir.

O, 44 günlük müharibədən sonra Qubadlı rayon 1 nömrəli məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris etməyə başlayıb. Deyir ki, məktəbdə işlədiyi dövrdə gələcəyin çağırışçılarının vətənpərvər ruhda böyüməsi üçün əlindən gələni etməyə çalışır. Onlara hərb peşəsinin sirlərini öyrətməklə yanaşı, keçdiyim şərəfli döyüş yolundan danışıram. Çalışıram ki, şagirdlər vətənpərvər ruhda tərbiyə alsın. Bu bizim ən ümdə vəzifəmiz olmalıdır. Çünki, müəllim təkcə elm öyrətmir. Məktəbin, müəllimin əsas vəzifələrindən biri də vətənpərvər gənclər yetişdirməkdir. Bir müəllim kimi bu vəzifəni icra etdiyim üçün çox xöşbəxtəm.

Xatırladaq ki, 44 günlük müharibədə 760 təhsil işçisi iştirak edib. Onlar qəhrəmancasına döyüşərək şücaət göstəriblər. Müharibədə iştirak edən təhsil işçilərindən 20 nəfəri şəhadətə qovuşub.

Qeyd edək ki, Gənclərin çağırışaqədərki hazırlığı fənni Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 may 1998-ci il "Gənclərin ibtidai hərbi hazırlıq əsasnaməsi"nə uygun olaraq orta təhsil məktəblərində tədris olunur. Fənnin mənimsənilməsi X və XI sinif şagirdləri arasında həftədə 2 saat, ildə 68 saat olaraq yerinə yetirilir. Şagirdlər tədris ili boyu sıra hazırlığı, silahlar və atəş hazırlığı, taktiki hazırlıq, hərbi topoqrafiq biliklər, fövqəladə halların təsnifatı, ilkin tibbi yardım qaydalarını hərbi kabinetlərdə mənimsəyirlər. Hərbi kabinetlər bütün bölmələri əks etdirən tərtibat işləri və əməli məşğələləri keçmək üçün əyani vəsaitlər ilə təchiz olunub. Hətta 100-ə yaxın məktəb elektron silah lahiyəsi ilə təmin edilib.

Hər il Nazirlər Kabinetinin 119 nömrəli qərarına əsasən həftənin cümə günləri gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin bu sahə ilə məşğul olan metodistləri tərəfindən seminar və metodiki toplantılar təşkil olunur. Bu seminar və toplantılarda il boyu keçirilən mövzular müzakirə edilir. Metodistlər mövzunun məzmunu, planlaşdırılması və qiymətləndirilməsi qaydalarını müəllimlərə izah edirlər.

Bu gün məktəblərimizdə X və XI sinif şagirdlərinin hərbi dərslərə olan marağı yüksəkdir. Məktəblilər əməli məşğələlərin keçirilməsinə daha çox maraq göstərirlər. Bu baxımdan şagirdlər silahın natamam sökülüb yığılması, əleyhqazdan istifadə, yaralıya ilk tibbi yardım göstərilməsi qaydalarını əyani olaraq böyük həvəslə yerinə yetirirlər.

Şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsindən danışan zaman "Şahinlər" hərbi idman oyunlarını unutmaq olmaz. Hər il altı nazirlik və iki qurumun iştirakı, xüsusi ilə Gənclər və İdman və Təhsil nazirliklərinin birgə əməkdaşlığı ilə "Şahinlər" hərbi idman oyunlarının rayon, şəhər və respublika mərhələləri təşkil olunur. Bu yarışın keçirilməsində məqsəd şagirdlərimizin hərbi xidmətə və hərbi məktəblərə marağını artırmaqdır. Yarışda şagirdlər hərbi biliklərlə yanaşı, fiziki imkanlara da yiyələnmiş olurlar.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Fuad Muradov Yaponiyanın Azərbaycandakı səfiri ilə görüşdü

***Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vatanebe Katsuya Diasporla İş üzrə Dövlət Komitəsində olub.***

"Unikal" xəbər verir ki, qonağı səmimi salamlayan Komitə sədri Fuad Muradov Komitənin fəaliyyəti, həyata keçirdiyi layihələr, xaricdəki Azərbaycan Evləri, Koordinasiya Şuraları haqqında ətraflı məlumat verib. Komitənin təkcə xaricdə yaşayan azərbaycanlılarla deyil, eyni zamanda Azərbaycana dost münasibəti bəsləyən ölkələrdə də iş apardığını bildirən Sədr Yaponiyadakı Azərbaycan diasporunun fəaliyyətinin iki ölkə arasındakı münasibətlərin daha da genişlənməsində mühüm rol oynadığını qeyd edib. Komitənin dəstəyilə Yaponiyada gerçəkləşdirilən layihələr barədə fikirlərini bölüşüb.

Səfir Vatanebe Katsuya səmimi qəbula görə təşəkkür edib. Ötən ilin dekabrından Azərbaycanda fəaliyyətə başladığını söyləyən Səfir azərbaycanlıların Yaponiyaya olan sevgisinin onda xoş təəssürat yaratdığını deyib. O, bundan sonrakı fəaliyyətində Komitə ilə əməkdaşlığa hər zaman hazır olduğunu bildirib.

## Şəhid Ədalət Abbasov Gəncədə dəfn olundu

***İyunun 6-da Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və şəxsiyyəti müəyyənləşdirilən Abbasov Ədalət Vilayət oğlunun meyitinin qalıqları Daşkəsən rayonuna gətirilib.***

"Unikal" xəbər verir ki, şəhidin vida mərasimində Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının vəzifə səlahiyyətlərini müvəqqəti icra edən Vüqar Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, müharibə veteranları və əlilləri, rayon sakinləri iştirak ediblər.Şəhid Abbasov Ədalət Vilayət oğlunun nəşi Daşkəsəndə izdihamla qarşılanaraq ailəsinin yaşadığı Xoşbulaq kəndinə aparılıb. Şəhidin ailəsinin yaşadığı evdə cənazə namazı qılınıb, dualar oxunub. Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Qeyd edək ki, şəhid Abbasov Ədalət Vilayət oğlu 25 may 1970-ci ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. 1992-ci ildə o, könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılıb. 15 noyabr 1992-ci ildə Ağdərə rayonunun Çıldıran kəndində gedən döyüşlərdə xidməti borcunu yerinə yetirərkən itkin düşüb. 2007-ci ildə Daşkəsən rayon Məhkəməsi tərəfindən Ədalət Abbasova şəhidlik status verilməsi haqqında qərar qəbul edilib.

***Tural Əhmədov***

18_27 IYUl-QARA.qxd 6/6/2024 8:22 PM Page 13



## İcra başçısı olmayan şəhər və rayonların sayı 5-ə çatdı - SİYAHI

***Hazırda Azərbaycanda 1 şəhərin və 4 rayonun icra başçısı vəzifəsi boşdur.***

"Unikal"ın məlumatına görə, bu gün Prezident İlham Əliyevin imzaladığı sərəncamla Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Əzizağa oğlu Ağayev vəzifəsindən azad edilib. Onun yerinə təyinat olmayıb.

Qeyd edək ki, Asif Ağayev 2018-ci il oktyabrın 30-da bu vəzifəyə təyin edilmişdi. Bundan əvvəl isə, 2013-2018-ci illərdə isə Şamaxının icra başçısı işləyib.

Bundan başqa, Daşkəsən rayonu da hazırda icra başçısı olmayan rayonlardandır. Belə ki, rayona 12 il müddətdən çox rəhbərlik etmiş Əhəd Abıyev 17 iyul 2023-cü ildə vəzifəsindən azad edilib. Onun yerinə təyinat olmayıb.

Həmçinin, Culfa rayonunun icra başçısı Siyam Çərkəz oğlu Hacıyev 31 avqust 2023-cü il tarixində işdən çıxarılıb və onun da yerinə təyinat aparılmayıb.

17 noyabr 2023-cü il tarixində isə Prezident İlham Əliyev Mirsənani Seyidovu Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib. Şəhər rəhbərinin yerinə hələ ki, təyinat olmayıb.

Prezident Qusarın icra başçısını işdən çıxardı.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov isə 31 may 2024-cü il tarixində vəzifəsindən azad edilib. Qusar rayonuna da icra başçısı təyin edilməyib.

***Murad İbrahimli***

## Ağdaş rayonunda əhalinin pensiya təminatı və sosial müavinətlər

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına əsasən 2023-cü ildə Ağdaş rayonu üzrə 10501 nəfər pensiyaçıdan 1208 nəfəri işləyən, 9293 nəfəri isə işləməyən pensiyaçı olub.***




Pensiyaçıların 6291 nəfəri yaşa görə, 2749 nəfəri əlilliyə görə, 1461 nəfəri isə ailə başçısının itirməyə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 334,0 manat təşkil etmişdir.

Ağdaş rayonu üzrə 2023-cü ildə 587 ailənin 2506 üzvünə ünvanlı dövlət sosial yardımı təyin olunmuş və 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 114,84 manat olmuşdur.

Həmin dövrdə Ağdaş rayonu üzrə 891 birdəfəlik sosial müavinətlər alan şəxslərdən uşağın anadan olmasına görə 682 ailədə 701 uşağa təyin olunmuş müavinətin bir nəfərə düşən orta məbləği 466,64 manat, radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərə müalicə üçün 19 nəfərə bir nəfərinə düşən orta məbləği 300,0 manat, 89 nəfərə dəfn üçün bir nəfərə düşən orta məbləği 494,94 manat, penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş 80 nəfərə bir nəfərinə düşən orta məbləği 1366,50 manat təşkil etmişdir

***Ağdaş Rayon Statistika İdarəsi***

# İnformatika və coğrafiya fənləri üzrə əlavə imtahan keçiriləcək

***Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 9-da I ixtisas qrupu üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan keçirəcək.***



DİM-dən "Unikal"a bildirilib ki, imtahan Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda təşkil olunacaq.

İştirakçılar mayın 30-dan etibarən Dövlət İmtahan Mərkəzinin saytında imtahana buraxılış vərəqəsini çap edə bilirlər. Buraxılış vərəqəsində imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

DİM abituriyentlərin bir daha nəzərinə çatdırır ki, imtahan saat 10:00-da başlanacaq. Saat 09:45-də buraxılış rejimi başa çatacaq və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmayacaq.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər imtahana aşağıda qeyd olunan sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İnformatika fənni üzrə imtahanda 11804, coğrafiya fənni üzrə imtahanda isə 6636 nəfərin iştirakı nəzərdə tutulur.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 78 imtahan binası, 1375 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 78 ümumi imtahan rəhbəri, 224 imtahan rəhbəri, 1719 nəzarətçi, 240 buraxılış rejimi əməkdaşı, 78 bina nümayəndəsi cəlb olunub.

İmtahanda 26 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyunun 8-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

Qeyd: I ixtisas qrupu üzrə RK və Rİ, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən, lakin mayın 26-da və iyunun 2-də keçirilən əsas imtahanda iştirak etməyən abituriyentlərin iyunun 9-da keçiriləcək informatika və ya coğrafiya fənləri üzrə əlavə imtahanda iştirak etmələrinin hüquqi əhəmiyyəti yoxdur.

# Gözün tor qişası şizofreniyadan xəbər verə bilər

***Tədqiqatçılar şizofreniya xəstələrinin tor qişasının sağlam insanlarınkından fərqli olduğunu müəyyən ediblər. Bu dəyişikliklər psixiatrlara kimin ən ağır xəstəliyə sahib olduğunu müəyyən etməyə kömək edə bilər.***



"Unikal" xəbər verir ki, araşdırmanın nəticələri "Biological Psychiatry" jurnalında dərc olunub.

Təkamül nöqteyi-nəzərindən, tor qişa beynin məhsuludur və ümumi genetikanı paylaşır. Genetik dəyişikliklərlə səciyyələnən şizofreniya kimi xəstəliklər üçün tor qişa tədqiqatçılara mərkəzi sinir sistemini öyrənmək üçün asanlıqla əlçatan bir alternativ təqdim edir. Maks Plank Psixiatriya İnstitutunun (Almaniya) alimləri şizofreniya xəstəsi və sağlam nəzarəti olan təxminən 230 xəstənin tor qişasını araşdırıblar. İşığa əsaslanan optik koherens tomoqrafiyadan (OCT) istifadə edərək tor qişanın təbəqələrini qeyd ediblər və ayrı-ayrı sinir hüceyrələrinin elektrik siqnallarını ölçüblər.

"Nəticələrimiz göstərir ki, şizofreniya xəstələrində tor qişanın bəzi təbəqələri əhəmiyyətli dərəcədə nazikləşib və elektrofizioloji siqnallar əhəmiyyətli dərəcədə dəyişib", deyə tədqiqat rəhbəri Florian Raabe bildirib.

Elm adamları ilk dəfə olaraq bu dəyişikliklərinin xüsusilə genetik risk faktorları yüksək olan xəstələrdə özünü göstərdiyini bildiriblər. Bu korrelyasiya onu göstərir ki, retina dəyişiklikləri təkcə siqaret, piylənmə və ya şəkərli diabet kimi digər amillərlə deyil, xəstəliyin özündən qaynaqlanır (bu, şizofreniya xəstələrində daha çox olur).

Tədqiqat işinin nəticəsinə görə, gələcəkdə diaqnoz zamanı tor qişanın ölçülməsi psixiatrlara hansı xəstələrin xüsusi risk altında olduğunu proqnozlaşdırmağa kömək edə bilər.

***Gülayə Mecid***

18_27 IYUI-QARA.qxd 6/6/2024 8:22 PM Page 14



# Zirvəyə səsləyən vətən sevgisi: Şəhid Nurlan Abdalov

***Ucadan-uca bir ad var, hansı ki hər kəsə nəsib olmur. Hansı ki zirvələrdə əbədi özünə məskən salıb ürəklərdə yaşayır. Şəhid! Bu addan hər zaman qürurlanırıq, yarımçıq qalan ömrünü hər tərəfi nura boyayan sönməz işığında yığışıb yad edirik, ruhuna dualar oxuyuruq. Şəhidlər Xiyabanında uyuyan yuzlərlə igid oğullarımızın qəhrəmanlığı təkcə böyüməkdə olan yeni nəslə deyil, bütün yaş qrupundan olanlara örnəkdir.***

30 ilə yaxın işğal altında olan torpaqlarımızın azadlığı uğrunda başlanan II Qarabağ Müharibəsində ailənin yeganə oğlu Nurlan Faiq oğlu Abdalov ön cəbhədə düşmənə qarşı amansızcasına vuruşmaqla Vətənə olan sevgisinin bütün arzu və istəklərindən üstün olduğunu sübut etdi. Vətənin dar günündə harayına səs verib cəbhə bölgəsinə yollanaraq cəsarəti və qorxmazlığı ilə 20 illik ömür yoluna sığışan böyük qəhrəmanlıq dastanı yazdı.



Nurlan Abdalov Sumqayıt şəhərində yerləşən 14 saylı tam orta məktəbin məzunu idi. Rəssamlığa böyük həvəsi olduğundan 2012-2015-ci illərdə "Dostluq" Mədəniyyət Mərkəzində rəssamlıq kursuna gedərək sənətin sirlərini öyrənmişdi. Nurlanı istedadlı və bacarıqlı oğlan kimi tanıyanlar onun hərbi xidmətə gedənə qədər bərbər sənətini də öyrəndiyini və saç stilisti kimi fəaliyyət göstərdiyini də söyləyirlər. 2018-ci ildə hərbi xidmətə getməzdən əvvəl Sumqayıt Şəhər Hərbi Komissarlığının xətti ilə sürücülük məktəbini bitirmişdi. Vətən qarşısında borcunu yerinə yetirən əsgərin hərbi yolu Ağcabədidən başlasa da andiçmə mərasimindən sonra Beyləqanla əvəz olunmuşdu. "N"saylı hərbi hissədə ixtisas dərəcələrinin bölgüsündən sonra baş sürücü təyin edilmişdi. Hərbi xidmətini Füzuli rayonunun Haramı düzündə yerləşən "N" saylı hərbi hissədə davam etdirərək nizam-intizamlı olması, verilən tapşırıqların öhdəsindən bacarıqla gəlməsi ilə komandanlığın və yoldaşlarının rəğbətini qazanmış, hətta ailəsinə iki dəfə təşəkkür məktubu göndərilmişdi. 2020-ci il yanvar ayının 10-da isə hərbi xidmətini başa vuraraq evə qayıtmışdı. Anası Səminə, atası Faiq və bacısı Nuranə onun gəlişinə sevinsələr də bu sevinc çox çəkməmişdi...

**-Səminə ana, rəssam ruhlu oğlunuz yoxluğundan təsəlli tapdığınız nədir?**

-Təbiətin vurğunu olan oğlum Nurlan rəssam ruhlu idi. Mavi dənizi seyr etməyi, yaşıllıqları, heyvanları çox sevərdi. Çox vaxt gedib gəzdiyi şəhərlərin, rayonların mənzərəli yerlərinin çəkərdi. Çəkmək istədiyi portretlər, mənzərələr çox idi... Qarabağımızı azad görüb çəkmək istəyirdi... Oğlumla birgə keçən hər gün ondan qalan yadigardır. Keçmişin şirin xatirələri, bir də şəhid adını qazanan oğlumun heç zaman unudulmayacağı və əsrlər ötsə də qəhrəmanlıq göstərən oğullar arasında daim yaşayacağı ən böyük təsəllimdir. Yaşasaydı bu il iyun ayının 12-də 24 yaşı tamam olacaqdı... Amma bizim evdə hər zaman qoxusu gələn nur üzlü 20 yaşlı Nurlan həmişə var...

Nurlanın Türkiyədə hərbi təlimlər keçmək, gizir rütbəsi ilə təltif olunmaq kimi istəkləri vardır. O hərbi təhsil almaq, biz isə onun toyunu görmək arzusu ilə yaşayırdıq. Qızımın onu hərbi xidmətdən qayıdan kimi ailə sahibi etmək, bibi olmaq arzusu yerinə yetmədi. Bu gün yeganə təsəllimiz şəhid adının həqiqətən ölməzliyi və uca zirvədə əbədi yaşamasıdır.

Şəhidin atası Faiq Abdalov qorxmaz və cəsarətli oğlu Nurlanın keçdiyi döyüş yolundan iftixarla danışır, onun Vətənini azad görmək istəyi ilə müharibəyə getdiyini deyir...

**-Faiq ata, oğlunuzun ən böyük arzusu nə idi?**

Nurlanın arzuları çox idi, görünür azad torpaq uğrunda şəhid olmaq arzusu öndə imiş... Hələ orta məktəbdə oxuyarkən 2016-cı ilin Aprel döyüşləri şəhidləri haqqında danışılanda sinif yoldaşlarından biri ona sual verib ki, sən də şəhid olacaqsan? Sualı səssiz cavablandıran oğlumun mərd duruşu və mətanətli baxışları sual verənin bu gün də gözləri önündən getmir. Vətən sevgisi oğlumu zirvəyə səsləyirdi... Bu istək balamı hələ 2020-ci ilin yay aylarında müddətdən artıq hərbi xidmətə qədər aparmış və o Z.Tağıyev qəsəbəsində "N" saylı hərbi hissədə yüksək döyüş hazırlığı keçərək manqa komandiri vəzifəsinə, çavuş rütbəsinə kimi yüksəlmişdi. 2020-ci ilin sentyabrın 27-də başlanan II Qarabağ Müharibəsində Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd uğrunda gedən qızğın döyüşlərdə iştirak etmiş, bir dəfə qolundan yaralansa da döyüşdən kənarda qalmamışdı. 20 yaşlı yaralı komandirə döyüş yoldaşları geri qayıt desələrdə, o döyüşü davam etdirmişdi. Biz isə isti evimizdə oturub cəbhə xəbərlərini izləyirdik. Əvvəl telefonla tez-tez əlaqə saxlayan oğlumdan nigaran idik, çünki daha zəng etmirdi...

Hərbi geyimi və xüsusi əşyaları ilə bəzədilmiş otağının hər küncündə qardaşının onlara dikilən baxışlarını görən və nəfəsini duyan bacısı Nuranə deyir ki, ana və atası 37 gün döyüşlərdə iştirak etmiş Nurlanın yoxluğunu hiss etmirlər. Çünki şəhidlər ölmür, ruhları hər tərəfdə, onların qanı bahasına geri qaytarılan torpaqlarda dolanır. 30 il işğal altında olan, tikan basmış və azadlığı uğrunda şəhid qanı axıdılmış torpaqlarımız indi laləzara çevrilir.

Nurlan Abdalov noyabr ayının 3-də Xocavənd uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsində özünə əbədi taxt qurdu. Noyabrın 5-də Sumqayıt Şəhər Şəhidlər Xiyabanında dəfn edildi. Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olundu.

Vətən üçün yaşayıb, Vətən üçün ölən Vətən oğlu, rahat uyu! Zəfər bizimdir! Üçrəngli bayrağımız Qarabağda dalğalanır, ruhun şad olsun!

Azərbaycan tarixinin şanlı səhifələrində Böyük Zəfəri bizə yaşadan şəhidlər Vətən var olduqca yaşayacaqlar!

***RƏNA İMANOVA***
***AJB-nin üzvü***

***P.S. 2023-cü ildə Türkiyədə Avrasiya yazarlar Birliyi tərəfindən keçirilən VII. Beynəlxalq Qaşqarlı Mahmud Hekayə Müsabiqəsində qalib gəldiyim "Körpənin arzuları" adlı hekayəmi şəhid Nurlan Abdalovun adının əbədiləşdirilməsinə həsr etmişəm. Ruhu şad olsun!***




## 2023-cü ildə Qusarda bələdiyyələrin işi haqqında statistika

***Qusar rayonun ərazisində 29 bələdiyyə fəaliyyət göstərir. Onların 1-i şəhər, 1-i qəsəbə və 27-si kənd bələdiyyələridir.***

2023-cü ildə bələdiyyələr tərəfindən 1075,3 min manat gəlir əldə edilmişdir ki, bu da 2022-ci illə müqayisədə 108,7 faiz təşkil etmişdir. Gəlirlərin 245,2 min manatını (22,8%) vergilərdən daxilolmalar, 830,1 min manatını (77,2%) vergi olmayan gəlirlər təşkil etmişdir.

2023-cü ildə yerli bələdiyyə büdcələrinin xərcləri 1133,2 min manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 23,2 faiz çox olmuşdur. Yerli büdcə xərclərinin əsas hissəsi 575,4 min manatı (50,8%) yerli özünüidarəetmə orqanının saxlanmasına, 220,4 min manatı (19,4%) mənzil kommunal təsərrüfat xərcləri və 337,4 min manatı (29,8%) qalan xərclərin payına düşmüşdür.

***Qusar Rayon Statistika İdarəsinin rəis müavini Rafik Mahmudov***

## Ağdaşda pərakəndə əmtəə dövriyyəsi və ödənişli xidmətlərin əsas göstəriciləri

***2024-cü ilin yanvar-mart aylarında ticarət şəbəkələrində əhaliyə 72 milyon 646,0 min manatlıq, qiymət indeksi nəzərə alınmaqla 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 0,5 faiz və ya 373,2 min manat çox istehlak malları satılıb.***




Satılmış istehlak mallarının 16,1 faizi hüquqi şəxslərin, 83,9 faizi isə fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşmüşdür. Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin 40,9 faizi fərdi sahibkarlara, 59,1 faizi isə bazar və yarmarkalara aiddir.

2024-cü ilin yanvar-mart aylarında əhaliyə 9 milyon 634,1 min manat həcmində ödənişli xidmətlər göstərilmişdir. Ödənişli xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 5,4 faiz və ya 482,4 min manat artmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin 2 milyon 974,3 min manatı və ya 30,9 faizi hüquqi şəxslər, 6 milyon 659,8 min manatı və 69,1 faizi isə fiziki şəxslər üzrə olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

18_27 IYUl-QARA.qxd 6/6/2024 8:22 PM Page 15



# Zelenski Normandiyaya səfər edib



***Ukrayna prezidenti Volodimir Zelenski həyat yoldaşı Yelena Zelenskaya ilə birlikdə Fransanın Normandiya bölgəsinə səfər ediblər.***

"Unikal" xəbər verir ki, o, bu barədə özünün "Telegram" kanalında məlumat verib.

***Zərifə Nağıyeva***

# Türkiyənin 17 vilayətində FETÖ-yə qarşı əməliyyat keçirildi - Saxlanılanlar var



***Türkiyədə FETÖ-yə qarşı son 4 gündə 17 vilayətdə keçirilən "Kıskaç-19" əməliyyatlarında çox sayda şübhəli saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya məlumat verib.

Onun sözlərinə görə, polis qruplarının apardıqları əməliyyatlar nəticəsində 72 nəfər şübhəli tutulub.

***Zərifə Nağıyeva***

# "Təlimlər zamanı KTMT ölkələrinə də müdaxilə planlaşdırılır" - Şoyqu



***NATO KTMT ölkələrinə müdaxiləni inkişaf etdirir, havada təxribatların sayı artır.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu KTMT Təhlükəsizlik Şuraları Katibləri Komitəsinin iclasında bildirib.

Onun sözlərinə görə, NATO-nun genişlənməsinin davam etməsi KTMT ölkələri üçün birbaşa təhlükədir:"Kollektiv təhlükəsizlik zonasının şimal və qərb sərhədlərində alyansın hərbi mövcudluğu artır, yeni silah sistemləri yerləşdirilir. Hava məkanında təxribatların sayı artır, çoxsaylı hərbi təlimlər keçirilir, bu təlimlər zamanı KTMT ölkələrinin ərazisinə də müdaxilə planlaşdırılır".

O əlavə edib ki, Qərbin siyasəti KTMT-nin məsuliyyət zonasında vəziyyətin pisləşməsinə gətirib çıxarır.

***Ağarza Elçinoğlu***

# İsrail Qəzzada yenə məktəbi vurdu - Ölənlər var



***İsrail ordusu Qəzzada köçkünlərin sığındığı Nusayrat Qaçqınlar Düşərgəsindəki Birləşmiş Millətlər Təşkilatının məktəbinə hücum edib.***

"Unikal" xəbər verir ki, bu barədə Qəzza hökumətinin media ofisinin "Telegram" hesabında yazılı açıqlama verilib.

Hücum nəticəsində ölən 39 nəfərin cənazəsinin Əqsa Şəhidləri Xəstəxanasına çatdırıldığı və onlarla yaralının olduğu bildirilib.

***Zərifə Nağıyeva***

# Krımda Rusiya gəmisi məhv edildi

***Gecə saatlarında Qara dəniz sularında Rusiya gəmisi məhv edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin nümayəndəsi Andrey Yusov məlumat yayıb. "Moskva vilayətinin Baş Kəşfiyyat İdarəsinin xüsusi təyinatlılarının gəmisi dəqiq zərbə ilə məhv edildi", - nümayəndə bildirib.

Yusov onu da qeyd edib ki, əməliyyat əvvəlcə Rusiyanın qurduğu dəniz istehkamlarının yarılması, daha sonra isə gəminin məhv edilməsi nəticəsində mümkün olub.

***Gülayə Mecid***

# "Rus tərəfdaşlar dəmir yolunun bərpası üçün işlər aparırlar" - Paşinyan

***Rusiyalı tərəfdaşlar dəmir yolunun bərpası istiqamətində genişmiqyaslı işlər aparırlar.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş nazirii Nikol Paşinyan hökumətin iclasında deyib.



Baş nazirin sözlərinə görə, hökumət yeni körpülərin tikintisi ilə bağlı beynəlxalq tərəfdaşların fəal işləyir və onların dəstək göstərəcəyinə ümid var: "Birinci mərhələdə obyektiv olaraq, həta təmizləmə və axtarış-xilasetmə əməliyyatları üçün beynəlxalq dəstəyə ehtiyacımız yox idi. İndi bizim insanların itkilərinin bərpası və ödənilməsi baxımından real dəstəyə ehtiyacımız var və çox vacibdir ki, beynəlxalq tərəfdaşlarla danışıqlarda mümkün dəstək formalarının siyahısı var ki, tərəfdaşlarımız onlar üçün uyğun variant seçə bilsinlər".

Xarici işlər naziri Ararat Mirzoyan da bildirib ki, ən azı bir neçə tərəfdaş xüsusilə körpünün tikintisi məsələsində hazır olduqlarını bildiriblər.

***Ağarza Elçinoğlu***

# Şolts Ukraynada münaqişənin gərginləşməsindən qorxur

***Almaniya kansleri Olaf Şolts etiraf edib ki, o, Ukraynada münaqişənin gərginləşməsindən qorxur.***

"Unikal" xəbər verir ki, o, bu barədə Bundestaqın aşağı palatasının iclasında təhlükəsizlik vəziyyəti ilə bağlı məruzə ilə çıxış edərkən bildirib.

Hökumət başçısı qeyd edib ki, o, Almaniyada heç kim hərbi toqquşmada iştirak etmək istəmir. Buna görə də Almaniya müttəfiqlərinə Ukraynanın özünü hücumlardan müdafiə etmək hüququna malik olduğunu deyib.

Kansler vurğulayıb ki, Ukrayna beynəlxalq hüquqi öhdəliklərə uyğun olaraq Almaniya və müttəfiqləri tərəfindən verilən silahlardan istifadə edə bilər.



# Bu ölkədə quş qripindən ölüm halı qeydə alındı

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyada ilk dəfə insanda quş qripi A(H5N2) virusuna yoluxma faktını açıqlayıb.***

"Unikal" təşkilata istinadən xəbər verir ki, bu hadisə Meksikada qeydə alınıb.

Ölkənin səlahiyyətli orqanları ÜST-ə Meksika ştatının sakininin bu virusa yoluxduğu barədə məlumat verib. Bu, dünyada qeydə alınmış quş qripi A(H5N2) virusu ilə insan yoluxmasının laboratoriya tərəfindən təsdiqlənmiş ilk hadisəsidir və Meksikada qeydə alınan H5 quş virusu ilə ilk insan yoluxmasıdır.



ÜST-nin məlumatına görə, virusun mənbəyi hələ məlum deyil. Eyni zamanda, A(H5N2) virusları "Meksikada ev quşlarında" aşkar edilib.

Yoluxmuş şəxs Meksika ştatının 59 yaşlı sakini olub, onun "quş və ya digər heyvanlarla təması yoxdur". Kişinin bir neçə əsas xəstəlikləri var. Xəstənin yaxınlarının dediyinə görə, kəskin simptomlar başlamazdan əvvəl "o, artıq üç həftə idi ki, başqa səbəblərdən yataq xəstəsi idi". Aprelin 17-də qızdırma, təngnəfəslik, ürəkbulanma, ishal, ümumi halsızlıq yaranıb. Aprelin 24-də həmin şəxs həkimə müraciət edib və onu Tənəffüs Yolları Xəstəlikləri İnstitutuna aparıblar. O, elə həmin gün "fəsadlar səbəbindən" vəfat edib.

***Gülayə Mecid***

# Argentina hökuməti daha 50 min məmuru işdən çıxaracaq

***Argentina hökuməti dövlət sektorunda çalışan işçilərin sayını daha 50 min azaldacaq.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ölkə prezidenti Xavyer Miley məlumat yayıb.

"Dövlətin bütün strukturu yarıya endirilib. Bu, baha başa gəldi, biz insanları işdən çıxardıq. Ümumilikdə biz 75 min insanı ixtisar edəcəyik, 25 min nəfər artıq ixtisar edilib", - o, Latın Amerikası İqtisadi Forumunda çıxışı zamanı deyib.

Miley etiraf edib ki, onun islahatları həssas və orta təbəqəni vurub. Onun sözlərinə görə, görülən dəstək tədbirləri vətəndaşların narazılığının qarşısını almağa kömək edib.

2023-cü il dekabrın 10-da prezident kimi fəaliyyətə başlayan Miley dövlət başçısı kimi ilk çıxışında ölkədəki vəziyyəti kritik adlandırıb və iqtisadiyyatda şok tədbirlərinə ehtiyac olduğunu bildirib. Libertar siyasətçi dövlətin iqtisadiyyata minimal müdaxiləsinin tərəfdarıdır və Argentinanın iqtisadi problemlərinin həllini xərcləri azaltmaqla büdcə kəsirindən xilas olmaqda görür. Argentina Katolik Universitetinin tədqiqatçılarının fikrincə, Miley hökumətinin şok tədbirləri fonunda ölkədə yoxsulluq səviyyəsi ilin birinci trimestrində 55%-ə yüksəlib. Dekabrda bu göstərici 49,5% təşkil edib.



***Gülayə Mecid***

# "Real" Modriçlə yeni müqavilə imzaladı

***"Real" futbolçusu Luka Modriçlə yeni müqavilə imzalayıb.***

"Unikal" insayder Fabrizio Romanonun sosial şəbəkə hesablarına istinadən xəbər verir ki, 38 yaşlı yarımmüdafiəçi ilə müqavilənin müddəti 1 illik uzadılıb. Beləliklə, xorvatiyalı oyunçu 2024/2025 mövsümündə də Madrid təmsilçisində oynayacaq.

Xatırladaq ki, Modriç 2012-ci ildən "Real"da çıxış edir. O, 2023/24 mövsümündə bütün yarışlarda 46 matçda iştirak edib, 2 qol vurub və 8 qolun ötürməsini verib.



# Dünyanın ən yaxşı hücumçuları

***Nüfuzlu "FourFourTwo" nəşri dünyanın ən yaxşı 10 hücumçusunun adını açıqlayıb.***

"Unikal" xəbər verir ki, siyahıya Almaniya millisinin və "Bavariya" klubunun forvardı Harri Keyn başçılıq edir.

İspaniyanın "Real Madrid" komandasının yeni transferi Kilian Mbappe ikinci, norveçli Erlinq Holann üçüncü pillədə qərarlaşıb.

**Dünyanın ən yaxşı 10 hücumçusu:**

1. Harri Keyn ("Bavariya", Almaniya)
2. Kilian Mbappe ("Real Madrid", İspaniya)



3. Erlinq Holann ("Mançester Siti", İngiltərə)
4. Viktor Osimhen ("Napoli" İtaliya)
5. Aleksander İsak ("Nyukasl", İngiltərə)
6. Lautaro Martines ("İnter", İtaliya)
7. Son Hın Min ("Tottenhem", İngiltərə)
8. Viktor Qyökeres ("Sportinq", Portuqaliya)
9. Olli Uotkinsi ("Aston Villa", İngiltərə)
10. Randal Kolo Muani (PSJ, Fransa)

# "Qalatasaray" sabah Okan Burukla yeni müqavilə imzalayacaq



***"Qalatasaray" sabah baş məşqçisi Okan Burukla yeni müqavilə imzalayacaq.***

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. İstanbul təmsilçisi sabah 40 yaşlı mütəxəssis üçün imza mərasimi təşkil edəcəyini açıqlayıb. Tədbir "Ali Sami Yen" stadionunda keçiriləcək və Bakı vaxtı ilə saat 12:00-da başlayacaq.

Qeyd edək ki, Okan Buruk 2022-ci ildən "Qalatasaray"ın baş məşqçisidir. O, komanda ilə ardıcıl 2 dəfə Superliqa çempionu olub. Həmçinin "Qalatasaray" bu mövsüm Türkiyə Superkubokunu da qazanıb.

# "Qarabağ"ın legioneri Belçikaya qarşı oynadı

***"Qarabağ"ın futbolçuları Marko Veşoviç və Marko Yankoviçin çıxış etdiyi Monteneqro millisi yoxlama oyunu keçirib.***

QOL.az xəbər verir ki, komanda Belçika ilə qarşılaşıb və 0:2 hesabı ilə uduzub.

Belçika - Monteneqro - 2:0

Qollar: De Brüyne, 44, Trossard, 90+3-pen.

Veşoviç start heyətdə meydana çıxıb və 70-ci dəqiqədə əvəzlənib. Yankoviç isə ehtiyatda qalıb.



# "Lill"də yeni baş məşqçi



***"Lill"in yeni baş məşqçisi müəyyənləşib.***

"Unikal" Fransa klubunun saytına istinadən xəbər verir ki, Paulo Fonsekanın istefasından sonra boş qalmış vəzifəyə Bruno Qenesio təyin edilib. Fransalı mütəxəssislə 2 illik müqavilə imzalanıb.

57 yaşlı çalışdırıcının son iş yeri 2023-cü ilin noyabrında ayrıldığı Fransa "Renn"i olub.

# "Real"ın Arda Gülərlə bağlı planı

***"Real"ın yeni mövsüm üçün Arda Gülerlə bağlı planı müəyyənləşib.***

"Unikal" "Athletic"ə istinadən xəbər verir ki, Madrid təmsilçisi türkiyəli yarımmüdafiəçini komandada saxlamaq istəyir və daha çox şans verməyi planlaşdırır. Ardanın sağ cinahda oynamaq şansının yüksək olduğu vurğulanıb.

Qeyd edək ki, 19 yaşlı futbolçu 2023/2024 mövsümündə zədə səbəbindən cəmi 12 matçda meydana çıxıb və 6 qol vurub.

# De Brüyne 100-ə çatdı

***"Mançester Siti"nin futbolçusu Kevin De Bruyne Belçika millisində 100-cü matçını keçirib.***

QOL.az xəbər verir ki, o, Monteneqro ilə yoldaşlıq görüşündə meydana çıxıb. Bu oyun 32 yaşlı yarımmüdafiəçinin milli karyerasında 100-cü olub.

Nəticədə De Brüyne Belçika millisində 100 oyun həddinə çatan 8-ci futbolçu olub. Əvvəllər bu göstəriciyə Eden Hazard, Romelu Lukaku və Tibo Kurtua kimi futbolçular çatıb.

Ümumilikdə, bu görüş daxil olmaqla, milli komandadakı karyerası ərzində Kevin De Bruyne 27 qol vurub və 49 qolun ötürməsini verib.

# "Səbail"də daha bir müqavilə



***"Səbail" yeni mövsümə hazırlıq məqsədi ilə transfer işlərini davam etdirir.***

Paytaxt təmsilçisi futbolçusu Süleyman Əhmədovla başa çatan müqavilənin müddətini yeniləyib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 24 yaşlı müdafiəçi ilə 1 illik sözləşmə imzalanıb.

Qeyd edək ki, Əhmədov "Səbail"in heyətində ötən mövsüm Premyer Liqada 12 oyunda (565 dəqiqə) meydana çıxıb.

# Xabi: "Atalanta"ya məğlubiyyət məni güclü məşqçi edəcək"

***"Bayer"in baş məşqçisi Xabi Alonso Avropa Liqasının finalında "Atalanta"ya uduzmaqlarından növbəti dəfə danışıb.***



QOL.az goal.com-a istinadən xəbər verir ki, başa çatan mövsümdə Bundesliqanı və Almaniya kubokunu qazanan 43 yaşlı msütəxəssis Avroliqadakı məğlubiyyətin onun üçün faydalı olacağını deyib:

"Bu futboldur. Məğlubiyyətlə mübarizə bizim işimizin bir hissəsidir. Bu, komandamız üçün ilk məğlubiyyət deyil, sonuncu da olmayacaq. Amma əminəm ki, "Atalanta"ya uduzmağım məni 3-cü kuboku qazanmağımdan daha güclü məşqçi edəcək. Belə matçlar unudulmur və gələcəkdə onların təcrübəsindən istifadə edə bilərik. Çox ağrılı məğlubiyyət idi. Amma mənə elə gəlir ki, bu, məşqçi kimi inkişafım üçün daha faydalı olacaq".

Qeyd edək ki, Alonso 2022-ci ildən "Bayer"ə rəhbərlik edir.